www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 yanvar 2025-ci il Çərşənbə axşamı № 15 (8625) Qiymətı 60 qəpik

**Xəbər**

## Prezident bu şəxslərin maaşını artırdı

yazısı səh.2-də

# ZƏNGƏZUR DƏHLİZİNİN ÖNÜ AÇILIR - BAKI VƏ ANKARA ƏQRƏBLƏRİ TUTUŞDURUR...

Bu koridor Türkiyə və Azərbaycanın gələcəkdə İrandan keçən marşrutlardan tamamilə imtina etməsinə gətirəcək, Tehranın onu sonadək əngəlləməsi üçün kifayət qədər imkanı yoxdur, boynundakı iqtisadi ilgək daha da sıxılacaq




yazısı səh.7-də

## Xaricə axıtdığımız 2,5 milyardı ölkəmizdə saxlaya bilərikmi? - rəy

"Bu gün bəh-bəhlə 5-10 manata aldığımız idxal məhsullarını bir neçə il sonra hətta 15-20 manata tapmaqda çətinlik çəkə bilərik"

yazısı səh.10-da

**Gündəm**

### "Azərbaycan separatçı bölgəyə qaz verəcək" iddiasının pərdəarxası - şərh



**Ekspert:** "Avropaya onların istədiyi qədər - ildə 20 milyard kubmetr qaz vermək üçün hasilata investisiya yatırılmalıdır"

yazısı səh.5-də

### Putin və Tramp arasında telefon danışığı planlaşdırılmır

yazısı səh.2-də

### "Formula 1"də "itən" 1,4 milyonun sənədi Gürcüstan bankında aşkarlandı

yazısı səh.12-də

### Çindən Ermənistana Zəngəzur xəbərdarlığı - Pekinin "Bir kəmər, bir yol" tələbi

yazısı səh.4-də

### Aİ Rusiyaya qarşı sanksiyaları uzatdı

yazısı səh.10-da

### Sabah bələdiyyə seçkiləridir

yazısı səh.4-də

### Kiyev üçün 4 ssenari - 4-ü birinə dəyməz, əgər...

yazısı səh.13-də

### 100 manat rüşvətə görə 8 il həbs cəzası aldı

yazısı səh.15-də

### İrandan mühüm hicab açıqlaması - rejim yumşalır, yoxsa...

yazısı səh.13-də

### Broyler toyuqlarına öldürücü dərman qatılır? - şok açıqlama

yazısı səh.3-də

### Bir qəzada 5 ölü - sovet maşınları nə vaxt yığışdırılacaq...

yazısı səh.14-də



### Paşinyan "soyqırımı" iddiasını dəfn edir - hiyləgər gediş, yoxsa...

yazısı səh.8-də



*Etibar Məmmədov:*

### "İran tərəfi münasibətlərin normallaşmasına imkan verməyəcək"

yazısı səh.9-da



Zülfüqar Yusifov

### Meymunçiçəyi ilə bağlı qorxunc iddia - həkimdən rəy

yazısı səh.3-də



# Prezident bu şəxslərin maaşını artırdı

**Prezident İlham Əliyev Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında Fərman imzalayıb.**

Fərmanla Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılır.

Prezidentin müvafiq fərmanları ilə həmçinin DİN-in xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları, Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları, Dövlət Təhlükəsizliyi Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları, Xarici Kəşfiyyat Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları, Dövlət Sərhəd Xidmətinin (DSX) həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları, Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları, Prezidentin Təhlükəsizlik Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları, Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları, Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb baş idarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 10% artırılıb.

Həmçinin, bu qurumların dövlət qulluqçusu olmayan mülki işçilərinin (Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan işçilər istisna olmaqla) aylıq tarif (vəzifə) maaşları orta hesabla 10 faiz artırılıb.

Fərmanlar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

# İlham Əliyev Lukaşenkoya təbrik məktubu göndərdi

**Prezident İlham Əliyev Belarus prezidenti vəzifəsinə yenidən seçilməyi münasibətilə Aleksandr Lukaşenkoya təbrik məktubu göndərib.**

"Seçkilərdə inamlı qələbəniz Sizə yüksək etimadın, Belarus xalqının Sizin dövlətçiliyin və hüquq qaydasının möhkəmləndirilməsinə, ölkə əhalisinin rifahının yaxşılaşdırılmasına, cəmiyyət həyatının bütün sahələrində demokratik dəyişikliklərin həyata keçirilməsinə yönəlmiş ardıcıl kursunuzu dəstəkləməsinin təzahürüdür. Əminəm ki, birgə səylərimiz Azərbaycanla Belarus arasında ənənəvi dostluğun, hərtərəfli əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə və genişlənməsinə, xalqlarımızın və ölkələrimizin rifahı naminə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına bundan sonra da töhfə verəcəkdir. Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dost Belarus xalqının tərəqqisi naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram", - deyə təbrikdə bildirilir.

# Türkiyə ilə Ermənistan rəsmiləri arasında mühüm görüş



**Qarsda Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşmasına, eləcə də regionun sosial-iqtisadi perspektivlərinin müzakirəsinə həsr olunmuş görüş keçirilib.**

Musavat.com xəbər verir ki, tədbirdə Ermənistanla münasibətlərin normallaşdırılması üzrə xüsusi nümayəndəsi, səfir Serdar Kılıç, Türkiyə Xarici İşlər Nazirliyinin Qafqaz və Mərkəzi Asiya üzrə baş direktorunun müavini Ayşe Üzer, eləcə də Arif Ekmekçi və Öndər Akgün iştirak ediblər.

Onlara Qars Ticarət və Sənaye Palatasının nümayəndələri, o cümlədən idarə heyətinin sədri Kadir Bozan və məclis sədri İdris Acay da qoşulub.

Məlumata görə, əsas müzakirə mövzusu Qars vilayətinin Akyaka rayonunda Ermənistanla sərhəddə yerləşən Şərq Qapısı sərhəd-keçid məntəqəsinin mümkün açılması olub. Görüş iştirakçıları bu addımın rayon sakinlərinə təsirini, eləcə də sosial-iqtisadi inkişafa potensial töhfəsini ətraflı qiymətləndiriblər.

Səfir Serdar Kılıç qeyd edib ki, sərhədlərin açılması Türkiyə, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması prosesində mühüm mərhələ olacaq. Onun sözlərinə görə, bu addım təkcə Qarsa deyil, bütün regiona əhəmiyyətli faydalar gətirəcək, regional əlaqələrin və beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə töhfə verəcək.

❑ Musavat.com

# Ruben Vardanyanın məhkəməsi davam etdirilib



**Ermənistan vətəndaşı olan, Azərbaycan Cinayət Məcəlləsinin işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və digər maddələrlə təqsirləndirilən Ruben Vardanyanın məhkəmə prosesi keçirilib.**

APA xəbər verir ki, Bakı Məhkəmə Kompleksində Bakı Hərbi Məhkəməsinin yeni inzibati binasında hakim Zeynal Ağayevin sədrliyi ilə məhkəmənin hazırlıq iclası davam etdirilib.

Qeyd edək ki, yanvarın 17-də başlayan hazırlıq iclasında Ruben Vardanyanın anket məlumatları dəqiqləşdirilib.

Ruben Vardanyan özünün seçdiyi müdafiəçi və rus dilinə tərcüməçi ilə təmin olunub.

İbtidai istintaq zamanı R.Vardanyana bildiyi dildə cinayət işi materialları ilə tanış olub öz müdafiəsinə hazırlaşmaq üçün kifayət qədər vaxt verilsə də, məhkəmə təqsirləndirilən şəxsin xahişini nəzərə alaraq vəsatətin təmin olunması barədə qərar qəbul edib və ona iş materialları ilə tanış olmaq üçün əlavə 10 gün vaxt verib.

Həmçinin ittiham tərəfi iş materialları ilə tanış olmaq üçün təqsirləndirilən şəxsə əlavə vaxt verilməsinə etiraz etməyib.

Məhkəmənin hazırlıq iclasının yanvarın 27-də davam etdirilib.

Xatırladaq ki, terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, Azərbaycan Respublikası və xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində cinayət işinin istintaqı aparılıb.



# Putin və Tramp arasında telefon danışığı planlaşdırılmır

**Putin və Tramp arasında telefon danışığı planlaşdırılmır. APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov bildirib. Onun sözlərinə görə, bununla bağlı heç bir razılaşma yoxdur. Ryabkov qeyd edib ki, Rusiya Federasiyasının yeni ABŞ rəhbərliyi ilə təmasları hələ başlamayıb. Nazir müavini vurğulayıb ki, Rusiya Federasiyası ABŞ ilə təmaslar üçün açıqdır. Bununla belə, Moskvanın ABŞ-ın yeni administrasiyası ilə təmasların qurulması üçün heç bir təşəbbüs göstərmədiyi məlum olub.**



# Alkoqollu içkilərin pərakəndə satışının minimum qiyməti müəyyənləşəcək

**Alkoqollu içkilərin pərakəndə satışının minimum qiymətinin müəyyən olunması qaydası müəyyənləşir.**

Bu, Prezident İlham Əliyevin tətbiqi barədə Fərman imzaladığı "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanuna əlavə edilən yeni - 29-1-ci maddədə əksini tapıb.

Qanuna əsasən, alkoqollu içkilərin pərakəndə satışının minimum qiyməti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən ediləcək. Alkoqollu pərakəndə satışına dair içkilərin minimum qiymətin müəyyən edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunacaq. Pərakəndə satışının minimum qiyməti müəyyən edilmiş alkoqollu içkilərin həmin qiymətdən aşağı qiymətə satılması qadağan ediləcək.

Yeni MÜSAVAT
N 15 (8625) 28 yanvar 2025

# Meymunçiçəyi ilə bağlı qorxunc iddia - fərqli rəylər

## Həkim: “Səhlənkarlıqlar da ola bilər, məqsədli işlər də...”

**“Adamları öldürmək, məhv etmək üçün həmin xəstəliyi meymundan insana yeridiblər”. Belə bir ilginc iddianı Azərbaycan Tibb Universitetinin dosenti, fizioloq, tibb üzrə fəlsəfə doktoru Rəşid Mahmudov səsləndirib.**

O bildirib ki, meymunçiçəyi qorxulu xəstəlikdir: “1982-ci ildə alimlər sübut etdi ki, Konqonun yaxınlığında böyük bir meşəlik var. Burada meymunlar yaşayır. Bu meymunlarda da çoxlu sayda çiçək xəstəliyi var idi. Bu yaxınlara qədər həmin meymunlar Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nəzarətdə saxlanılırdı. Qorxurdular ki, həmin xəstəlik insanlara keçər. Özləri bilərəkdən yaydılar. İstəyirlər ki, dünya əhalisinin sayını 7 milyarddan 1 milyarda salsınlar. Artıq Azərbaycanda bir insanda bu xəstəlik tapılıb”.

Qeyd edək ki, bu iddianın müəllifi sıradan biri yox, tibb üzrə fəlsəfə doktorudur. Odur ki, sual yaranır: Rəşid Mahmudovun fikrini onun həkim həmkarları bölüşürmü?

Qeyd edək ki, bundan əvvəl də ABŞ Milli Sağlamlıq İnstitutunun (NIH) və Çinin Uhan şəhərindəki bir laboratoriyanın 2022-ci ildə bu xəstəliyin yayılmasından əvvəl də meymun çiçəyi üzərində “işlədiyi” iddia edilir. Onlar deyirlər ki, yeni xəstəliklərin yayılmasının Uhan laboratoriyasında başlaması ehtimalı yüksəkdir.

Rusiya mediasının yazdığına görə bu iddia doğru deyil. Uhan Virusologiya İnstitutunun alimləri PCR testi üçün şablon əldə etmək üçün meymunçiçəyi virusunun genomunu tədqiq ediblər. Müəlliflər məqalənin təsvirində qeyd olunduğu kimi, təhlükəsizlik məqsədilə öz işlərini xüsusi olaraq meymunçiçəyi genomunun bir parçası ilə (bütün genomun əvəzinə) məhdudlaşdırıblar. Onların araşdırmaları 2022-ci ilin fevral ayından onlayn olaraq mövcuddur.

ABŞ Milli Sağlamlıq İnstitutuna daxil olan Milli Allergiya və Yoluxucu Xəstəliklər İnstitutunun (NIAID) alimləri də meymun çiçəyi xəstəliyini tədqiq ediblər. Onlar xəstəliyə qarşı peyvəndin və antiviral vasitələrin hazırlanmasında əsas rol oynayıblar və Afrika ölkələrində meymun çiçəyi xəstələrinin diaqnozuna kömək ediblər. NIAID, həmçinin virusun xüsusiyyətlərini və mümkün variantlarını daha yaxşı başa düşmək üçün onun genomik ardıcıllığını həyata keçirir.



Meymun çiçəyi ilk dəfə 1958-ci ildə meymunlarda, 1970-ci ildə insanlarda qeydə alınıb. Virusun təbii mənşəyi məlum deyil, lakin virusun Afrika gəmiricilərindən (dələ, Qambiyalı hamster siçovulları və s.) və primatlardan (meymunlar kimi) insanlara keçməsi qeydə alınıb. Xəstəliyin əsas yayılma sahəsi Mərkəzi və Qərbi Afrikada tropik meşələrə yaxın ərazilərdir. Meymunçiçəyi virusunun süni şəkildə yaradıldığına dair heç bir sübut yoxdur. Elm adamları meymunçiçəyi xəstəliyinin mövcudluğu haqqında ən azı 1950-ci illərin sonlarından bəri bilirdilər. Ona görə də elmi ictimaiyyətin hələ də ictimai sağlamlıq üçün təhlükə yaradan xəstəliklə bağlı araşdırma aparması məntiqlidir.

Bu arada, TƏBİB meymunçiçəyinə yoluxmuş Azərbaycan vətəndaşının vəziyyəti barədə açıqlama verib. Qeyd edilib ki, meymunçiçəyi virusuna yoluxan şəxsin müvafiq tibb müəssisəsində müalicəsi davam etdirilir, hazırda vəziyyəti stabil olaraq qiymətləndirilir".

Yada salaq ki, Səhiyyə Nazirliyi və TƏBİB-in birgə məlumatında 02-11 yanvar 2025-ci il tarixlərində 22 yaşlı Azərbaycan vətəndaşının xarici ölkəyə turistik səfər etdiyi və oradan döndükdən bir neçə gün sonra halsızlıq, hərarət, genital nahiyədə suluqlu səpgilər, limfa düyünlərinin böyüməsi və əzələ ağrıları ilə Bakıda fəaliyyət göstərən klinikalardan birinə müraciət etməsi, onda meymunçiçəyi virusunun aşkarlanması bildirilmişdi.

“Meymunçiçəyinə görə riskli ölkələrdən daxil olan sərnişinlərə xüsusi diqqət yetirilir”. Bu barədə Dövlət Gömrük Komitəsi tərəfindən məlumat yayıb. Qeyd edilib ki, hava limanları və digər dövlət sərhədindən buraxılış məntəqələrində meymunçiçəyi virusunun ölkə sərhədindən sirayət etməsinin qarşısının alınması istiqamətində Dövlət Gömrük Komitəsi (DGK) tərəfindən bir sıra tədbirlər həyata keçirilir.

“Ümumdünya Səhiyyə Təşkilatının məlumatları əsasında meymunçiçəyinə görə riskli ölkələr müəyyən edilib və həmin ölkələrdən daxil olan sərnişinlərə xüsusi diqqət yetirilir. Mütəmadi olaraq DGK-nın Tibbi Xidmət İdarəsi tərəfindən dövlət sərhədindən buraxılış məntəqələrində gömrük əməkdaşlarına xüsusi təhlükəli infeksiyalara dair maarifləndirici təlimlər keçirilir və son dövrlərdə daha çox meymunçiçəyinin klinik əlamətləri, yoluxma yolları və profilaktikasına xüsusi diqqət yetirilir.

Hərarəti yüksək olan sərnişinlərin aşkar edilməsi üçün mövcud texniki imkanlardan istifadə olunur. Xəstəliyə şübhəlilərin ilkin tibbi baxışının keçirilməsi və epidemioloji sorğunun aparılması ilə əlaqədar hazırlıq səviyyəsi artırılıb. Xəstəliyə şübhəli şəxslər aşkar edilərsə, növbəti addımlar Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) və müvafiq qurumlarla birgə “Azərbaycan Respublikasının gömrük-sərhəd buraxılış məntəqələrində xüsusi təhlükəli infeksiyalara qarşı əks-epidemik tədbirlərə dair Təlimat”a əsasən həyata keçiriləcək", - məlumatda vurğulanıb.

**Bakı Ağrı Klinikasının baş həkimi Zülfüqar Yusifov mövzu bağlı “Yeni Müsavat”a fikrini bölüşüb:** “Virusların süni yaradılması ilə bağlı müxtəlif versiyaları ara-sıra biz də görürük. İstər meymunçiçəyi, istər digər viruslar, istərsə də yaxınlarda rast gəldiyimiz pandemiya xarakterli COVİD-19 virusu olsun, bunların süni şəkildə yayılması ilə bağlı fikirlər var. Əlbəttə ki, nəzəri cəhətdən bütün bunlar mümkündür. Biz tez-tez bioloji silahlar barədə eşidirik. Belə ki, bəzi ölkələrin arsenalında bioloji silahların olduğu söylənilir. Bu silahların baza hissəsini öldürücü viruslar təşkil edir.

Bütün bunlar nəzəri baxımdan mümkündür. Bəzi vasitələr düzgün istiqamətdə istifadə olunarsa, yəni bu texnologiyalar faydalı şəkildə yönəldilərsə və bir sıra ağır xəstəliklərin profilaktikasına ayrılarsa, bir çox problemlərin həllinə töhfə verə bilər. Ancaq bu vasitələr niyyəti xoş olmayan, etibarsız əllərə düşdükdə, olduqca təhlükəli olurlar. Necə ki, bir zamanlar Eynşteyn tərəfindən atom kəşf edilərkən, ilk düşüncələr enerji üçün istifadə etmək idi. Amma çox qısa müddətdə bundan siyasətçilər və yaxud müharibəyə hazırlıqda dünya gücünə sahib olmaq istəyənlər tərəfindən silaha çevrildi. Atomun formulu bir silaha çevrildikdən sonra, qısa müddət ərzində Xirosima və Naqasakidə dünyanı və insanlığı sarsıdan böyük faciə yaşandı.

Bu tip misalları artırmaq olar və viruslar da bu qəbildəndir. Bunlar da bioloji silah kimi insanlığa qarşı istifadə edilə bilir. Sadəcə, meymunçiçəyi ilə bağlı bu fikri irəli sürmək çətin olardı. Çünki əlimizdə konkret fakt yoxdur. Yeni belə bir şey olsaydı, bununla bağlı biz məlumat almış olardıq. Ən azından, müəyyən xüsusi xidmət orqanlarında belə məlumatlar olardı. COVİD-19-la bağlı fikirlər ondan ibarətdir ki, Çində bəlli bir laboratoriyadan səhlənkarlıq nəticəsində virusun bir bazara yayılması dünyada böyük bir fəlakətə səbəb olub. Səhlənkarlıqlar da ola bilər, məqsədli işlər də ola bilər, amma bu mövzuda konkret fikir söyləmək üçün konkret sübutların olması olduqca vacibdir".

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**

# Broyler toyuqlarına öldürücü dərman qatılır? - şok açıqlama



**Sosial şəbəkələrdə yayılan bir video broyler toyuqlarının tərkibi ilə bağlı narahatlıq yaradıb. Videoda çəki artırmaq məqsədilə toyuqlara vurulan dərmanların mövcud olduğu iddia edilir. Bu qatqıların insan sağlamlığına təsiri isə sual doğurur.**

**Həkim, professor Adil Qeybulla** “Yeni Sabah”a açıqlamasında sözügedən məhsulun tərkibindəki qatqıların insan orqanizminə təsirindən danışıb:

“Broyler toyuqları genetik modifikasiyaya məruz qalmış (GMO) ərzaq məhsullarının bir qrupudur. Onlara xüsusi hazırlanmış yemlər verilir və bu yemlərin tərkibində hormonal maddələr olur. Bu maddələr toyuğun sürətlə böyüməsini və çəkisinin artmasını təmin edir. Əslində toyuq belə qısa müddətdə təbii yolla yetişə bilməz. Süni vasitələrlə, müxtəlif dərmanlar və əlavələrlə broyler toyuqları yetişdirilir. Hətta bu məhsullara antibiotiklər də vurulur ki, onları müxtəlif xəstəliklərdən qorumaq mümkün olsun”.

**Həkim qeyd edib ki, bu cür dərman və maddələrin insan sağlamlığına ciddi zərər vurduğu dəfələrlə araşdırmalarda qeyd edilib:** “Təəssüflə qeyd etmək lazımdır ki, bu haqda edilən çağırışlara baxmayaraq, hətta kənd yerlərində də broyler toyuqları geniş şəkildə istehlak edilir. İnsanlar iri çəkisi və görünüşü daha cəlbedici olduğu üçün təbii toyuqlara nisbətən broyler toyuqlarına üstünlük verirlər. Məhz bu seçim sağlamlıq problemlərinin əsas səbəblərindən birinə çevrilir.

Azərbaycan əhalisinin qida təminatında yardımçı təsərrüfatlardan daha çox istifadə olunmalıdır. Xüsusilə rayon ərazilərində yaşayan insanlara şərait yaratmaq lazımdır ki, onlar təbii kənd təsərrüfatı məhsullarını özləri yetişdirib satışa çıxara bilsinlər. Bu, həm təmiz məhsul istehsalı, həm də sağlam əhali üçün vacibdir. Sovet dövründə belə şərait mövcud idi, lakin indi bu imkanlar demək olar ki, tamamilə itirilib.

Bu məsələ mütləq şəkildə həllini tapmalıdır. Təəssüf ki, həmin problem yalnız Azərbaycana aid deyil. Dünyanın bir çox ölkələrində də broyler toyuqları geniş şəkildə istifadə olunur və sağlam qida problemi qlobal miqyasda böyük bir məsələ kimi gündəmdədir".

Onu da qeyd edək ki, Genetik modifikasiyaya məruz qalmış qidalar (GMQ) orqanizmin DNT-sinin dəyişdirilməsi ilə əldə edilən məhsullardır. Bu proses bitkilərin və ya heyvanların müəyyən xüsusiyyətlərini yaxşılaşdırmaq üçün aparılır, məsələn, məhsuldarlığı artırmaq, zərərvericilərə qarşı davamlılıq yaratmaq və ya qida keyfiyyətini artırmaq və s. Genetik modifikasiyaya məruz qalmış qidaların (GMQ) mümkün zərərləri haqqında bir çox mübahisələr mövcuddur. Elmi araşdırmalar bəzi potensial riskləri ortaya çıxarsa da, bunların bir çoxu hələ də qəti şəkildə təsdiqlənməyib.

# Çindən Ermənistana Zəngəzur xəbərdarlığı - Pekinin "Bir kəmər, bir yol" tələbi

## Fikrət Yusifov: "Ya Ermənistan dəhlizin açılmasına qərar verəcək, ya da..."
## Azər Hüseynov: "Bu layihədə Azərbaycan mühüm bir tranzit ölkə kimi ön plandadır"

**"Çin yeddi aydır ki, İrəvana yeni səfir təyin etmir. Bu da Ermənistan-Çin münasibətləri tarixində tamamilə görünməmiş bir haldır". Bunu erməni politoloq Suren Sərkisyan deyib.**

"Bu, aydın diplomatik mesajdır: belə məsələlərdə heç bir təsadüf yoxdur. Əmin olun, Pekinin diplomatik arsenalında bu gün İrəvana göndərə biləcəyi yüzlərlə peşəkar var", - o bildirib.

Politoloq bu vəziyyətə gətirib çıxaran üç əsas səbəbi açıqlayıb: "Ermənistanın "Bir kəmər, bir yol" meqalayihəsinə maraq göstərməməsi. Çin üçün bu, əsas təşəbbüsdür və Pekin ölkələri layihəni dəstəkləyənlərə və ona qarşı çıxanlara bölür. İrəvan faktiki olaraq dörd il əvvəl fəaliyyətini dayandırmış Dini Azadlıq Alyansının formal üzvü olaraq qalır, lakin bu faktın özü Pekin tərəfindən anti-Çin mövqeyinin təzahürü kimi qəbul edilir. İrəvan Tayvanın iqtisadiyyat nazirini qəbul edib ki, bu da Tayvan rəsmiləri ilə birbaşa təmaslardan yayınmaq öhdəliyini pozur. Çin üçün Tayvan məsələsi ən həssas məsələdir və o, burada "Vahid Çin" prinsipindən kənara çıxmağa imkan vermir".

Sərkisyan vurğulayıb ki, Çinin yanaşması tamamilə məntiqlidir və super dövlətin maraqlarına məhəl qoymamaq münasibətlərin daha da soyumasına gətirib çıxara bilər.

Xatırladaq ki, Çinin Ermənistandakı əvvəlki səfiri Fan Yun missiyasını iyulda başa vurub və o vaxtdan bu vəzifə boş qalıb.

Deyilənlərdə həqiqət payı nə qədərdir?

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifovun fikrincə, Zəngəzur dəhlizinin Çin üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini biz artıq illərdir ki, deyirik:** "Çin özünün məşhur "Bir kəmər, bir yol" layihəsinə 8 trilyon dollar vəsait xərcləmək qərarı veribsə və artıq bu layihə ilə bağlı 1 milyard dollardan çox vəsait xərcləyibsə, Ermənistan kimi bir cırtdan dövlətin belə nəhəngin planlarına qarşı çıxması mümkündürmü? Təbii ki, yox. Ermənistan anlamalıdır ki, bu gün tək Zəngəzur dəhlizi ilə bağlı məsələdə deyil, bütövlükdə odla oynayır. Bu dəhliz isə açılacaq, mütləq açılacaq və özü də bu ən qısa zaman kəsiyində baş verəcək. Ermənistan bir məqamı unutmamalıdır ki, dəhlizin açılması tək Şərqdəki böyük gücün - Çinin istəyi deyil, eyni zamanda ABŞ başda olmaqla, Qərbin aparıcı dövlətlərinin də istəyi və tələbidir. Nikol Paşinyan hakimiyyəti bu reallıqları nəzərə almadan dünyanın siyasi səhnəsində hər hansı bir uğur qazanacağına ümid etməsin.

Prezident İlham Əliyevin bu günlərdə Zəngəzur dəhlizi ilə bağlı qəti fikirlər söyləyərək - dəhliz mütləq açılacaq deməsi də sıradan bir məsələ deyil. Bu deyimin açması odur ki, ya Ermənistan dəhlizin açılmasına qərar verəcək, ya da bu məsələ bir başqa müstəvidə həll olunacaqdır".

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov hesab edir ki, Azərbaycanın xarici siyasətinin uğurları kontekstində Çinin Ermənistanla münasibətlərinin gərginləşməsi və Zəngəzur dəhlizi məsələsində Azərbaycanın mövqeyinə uyğun davranışları diqqətəlayiqdir:** "Çin üçün "Bir kəmər, bir yol" (Belt and Road Initiative, BRI) layihəsi strateji əhəmiyyət daşıyan bir təşəbbüsdür və bu layihədə Azərbaycan mühüm bir tranzit ölkəsi kimi ön plandadır. Azərbaycan coğrafi mövqeyi və logistik infrastrukturu ilə bu layihənin həyata keçirilməsində Çinə dəstək verə bilər. Bakı-Tiflis-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Şərq-Qərb nəqliyyat dəhlizi kimi infrastruktur layihələri ilə Azərbaycan Çinin Avropa və Asiya arasında bağlantısını təmin edə bilər. Ermənistanın isə "Bir kəmər, bir yol" layihəsində passiv mövqeyi onun bu təşəbbüsdən kənarda qalmasına səbəb olub.

Çinin Ermənistana yeni səfir təyin etməməsi, Ermənistanın "Bir kəmər, bir yol" təşəbbüsündə fəal iştirak etməməsi və Tayvan məsələsindəki addımları ilə bağlı ola bilər. Ermənistanın bu layihəyə dəstək göstərməməsi və Tayvan məsələsində Çinin qırmızı xətlərini pozması Pekinin narazılığını artırıb. Bu vəziyyət Azərbaycanın maraqlarına uyğun bir nəticə olaraq qiymətləndirilə bilər, çünki Zəngəzur dəhlizinin açılması və Ermənistanın regional təşəbbüslərə inteqrasiya olunmaması Azərbaycanın mövqeyini gücləndirir.



Azərbaycanın Zəngəzur dəhlizi layihəsini reallaşdırmaq istiqamətindəki səyləri ölkənin regional əməkdaşlıq və iqtisadi əlaqələri genişləndirmək istəyinin bir göstəricisidir. Çin kimi güclü dövlətlərin Ermənistanın bu layihələrdə iştirakını passivləşdirməsi Azərbaycanın bu istiqamətdə uğurlarını artırır. Çinin Ermənistana diplomatik təzyiqləri dolayısıyla Azərbaycanın mövqeyini möhkəmləndirir və Zəngəzur dəhlizinin açılmasını daha əlçatan edir.

Ermənistan-Çin münasibətlərindəki soyuma Pekinin strateji maraqlarına uyğun olaraq verdiyi qərarlardan irəli gəlir və burada Azərbaycanın strateji mövqeyi önəmli rol oynayır. Azərbaycan Çinin "Bir kəmər, bir yol" təşəbbüsündə mühüm tərəfdaş olaraq öz mövqeyini gücləndirə və Ermənistanın layihədən kənarda qalması ilə diplomatik üstünlük qazana bilər. Bu proseslər Azərbaycanın xarici siyasətində balanslaşdırılmış və uğurlu bir xətt yürütməsinin təsdiqidir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Sabah bələdiyyə seçkiləridir

## Arzuxan Əlizadə: "Namizədlərimizdən 25-i qeydə alındı"
## Akif Nağı: "Seçiləcək bələdiyyələr özlərində məsuliyyət hiss edəcəklər"

**Yanvarın 29-da Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Seçki ilə əlaqədar seçkiqabağı təşviqat artıq başa çatıb.**

Seçki Məcəlləsinin 72.3, 74.1.5, 74.1.7, 75.2-ci maddəsinə əsasən, qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən seçkiqabağı təşviqatın aparılmasına səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır.

Qeyd edək ki, yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqatın aparılmasına yanvarın 6-dan başlanıb, yanvarın 28-i saat 08:00-da dayandırılacaq.



Bələdiyyə seçkilərini 69 min 869 müşahidəçi izləyəcək. Onların 30 minə qədəri siyasi partiya nümayəndələridir.

Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında bildirib ki, 685 bələdiyyəyə 8071 üzv seçilməlidir. Adları bülletenlərə salınan namizədlərin sayı isə bundan iki dəfədən çox - 16 mindən artıqdır. O deyib ki, Azərbaycanda fəaliyyət göstərən 26 siyasi partiyanın 23-ü bələdiyyə seçkilərində öz namizədləri ilə fəal iştirak edir.

M.Pənahov vurğulayıb ki, 9 qeyri-hökumət təşkilatının təmsilçiləri həm namizəd, həm də müşahidəçi kimi qeydə alınıblar.

Seçici siyahısında isə 5 milyon 961 min 625 nəfərin adı var. Bələdiyyə seçkiləri keçiriləcək 118 seçki dairəsinin 3-ü keçmiş məcburi köçkün dairəsidir. 125 dairənin 7-si azad edilmiş ərazilərə düşdüyü üçün həmin dairələrdə seçkilər keçirilməyəcək.

**Millət vəkili, AMİP sədri Arzuxan Əlizadə "Yeni Müsavat"a seçkilərin gedişatını belə şərh etdi:** "Təəssüf ki, bələdiyyələrin yerli özünüidarəetmə orqanı kimi iştirakı lazımi səviyyədə olmadığı üçün seçkilərdə iştiraka bir o qədər də həvəs göstərilmir. Bələdiyyələrlə bağlı müəyyən boşluqlar var. Bunu etiraf etmək lazımdır. Bələdiyyələrin həm statusunun, eləcə də maliyyə imkanlarının artırılması ilə proseslərdə daha fəal iştirakı gözlənilir. Bu baxımdan partiya üzvlərimizin bələdiyyə seçkilərində iştirak etməyə o qədər də həvəsi yox idi. Amma son nəticədə rəsmi dövlət qeydiyyatından keçmiş partiya olaraq seçkilərdə iştirak etməyə qərar verdik. Hesab edirəm ki, namizədlərimizin əksəriyyəti şanslıdır, namizədliklərini irəli sürdükləri dairələr üzrə bələdiyyələrdə təmsil olunmaq imkanları var. Namizədlərimizdən 25-i qeydə alındı. Düşünürəm ki, bələdiyyələrin funksional imkanlarını artırmaq lazımdır. Ümid edirəm ki, gələcəkdə bələdiyyələrlə bağlı məsələlər gündəmə gələcək və onların imkanlarının genişləndirilməsi istiqamətində müvafiq addımlar atılacaq. Qanunvericilikdə bələdiyyələrlə bağlı kifayət qədər akt qəbul edilib. Qanunlar yetərlidir, lakin reallıqda bələdiyyələrin prosesdə iştirak etmək imkanları arzuedilən səviyyədə deyil".

**Azad Vətən Partiyasının sədri Akif Nağı isə "Yeni Müsavat"a şərhində bildirdi ki, partiya təxminən 25 rayondan namizəd təqdim edib:** "Müəyyən şərtlər daxilində son mərhələdə 11 namizədimiz qeydə alındı. 8 rayonda mübarizə aparırıq. Vacib prosesdir. Prosesdə həm namizədlərimizlə, həm də müşahidəçilərimizlə iştirak edirik. Prosesdən razıyıq. MSK vaxtaşırı mətbuata məlumat verir. Çox diqqətlə yanaşırlar. Hesab edirəm ki, seçiləcək bələdiyyələr özlərində məsuliyyət hiss edəcəklər. Bunun üçün ciddi hazırlıq işləri gedir. Düşünürəm ki, uğurlu proses olacaq".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 15 (8625) 28 yanvar 2025

# "Azərbaycan separatçı bölgəyə qaz verəcək" iddiasının pərdəarxası - şərh

## Ekspert: "Avropaya onların istədiyi qədər - ildə 20 milyard kubmetr qaz vermək üçün hasilata investisiya yatırılmalıdır"

**Moldovada Rusiyanın əlaltısı olan Dnestryanı bölgənin enerji təminatı son günlər xeyli narahatlıqlara səbəb olub. Belə ki, Rusiyanın "Qazprom" şirkəti Moldovaya əsassız olaraq hesabladığı 700 milyon dollardan yuxarı "borc"un ödənməsi tələbi ilə ölkəyə qaz verilişini dayandırıb. Həm Dnestryanı bölgəni, həm də Moldovanı elektrik enerjisi ilə təmin edən Moldova Dövlət Dairə Elektrik Stansiyası bölgəyə qaz verilişi kəsildikdən sonra kömürə keçib. Separatçı bölgənin qanunsuz başçıları Dneprin sağ sahilinə enerji verilişini dayandıraraq, Moldovadan "Qazprom"un əsassız hesabladığı borcu ödəməyi tələb edirlər.**



**Onlar Moldova vasitəsilə Avropadan qaz alınmasına da razılaşmır, eyni zamanda stansiyada kömür ehtiyatlarının fevralın ortalarına qədər davam edəcəyini bildirərək BMT və digər təşkilatlardan Moldovaya təzyiq olunmasını tələb edirlər. Separatçılar hətta Ukraynanın pulsuz verməyə hazır olduğu kömürün stansiyada istifadə üçün yararlı olmadığını iddia edirlər.**

Dnsetryanı bölgənin enerji təminatı Moldova prezidenti Maya Sandunun ötən həftəsonu Kiyevə rəsmi səfəri zamanı Ukrayna prezidenti Vladimir Zelenski ilə görüşündə də müzakirə olunub. Görüşdən sonra keçirilən brifinqdə Zelenski Moldova Dövlət Dairə Elektrik Stansiyasını pulsuz kömürlə, həmçinin kömürə uyğunlaşmanı təmin edəcək mütəxəssislərlə təmin etməyə hazır olduqlarını deyib. Əvəzində isə stansiyanın istehsal edəcəyi enerjinin artıq hissəsinin Ukraynaya verilməsini təklif edib. Brifinqdə jurnalistlərin Ukrayna ərazisindən qaz nəqli məsələsi barədə sualını cavablandıran Zelenski ötən həftə Davos İqtisadi Forumunda görüşü zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə Bakı qazının ölkəsi üzərindən Avropaya nəqli məsələsini müzakirə etdiyini açıqlayıb: "Bu, təkcə Moldovaya deyil, Slovakiyaya da aiddir. Qaz var, Azərbaycandan tədarük marşrutları var. Azərbaycanın ildə 25 milyard kubmetrlik ixrac potensialı var. Avropanın qaza ehtiyacı olsa, infrastrukturumuzdan istifadə edə bilərdik. Amma Rusiya qazı yox. Ukrayna Moldovanın Dnestryanı bölgəsini kömürlə təmin etməyə hazırdır. Orada insanlar onsuz da əziyyət çəkdikləri üçün köməyə ehtiyac duyurlar, nə istilikləri var, nə işıqları. Hamımıza vəziyyət aydın idi. Bizim əslində Moldovaya tədarük edə biləcəyimiz kömürümüz var, onu Tiraspola verə bilərik", - deyə Zelenski əlavə edib.

**Zelenski bildirib ki, Ukrayna Azərbaycandan qaz tranzitini sürətlə qura bilər:** "Biz azərbaycanlılara pul qazanmağa imkan yarada bilərikmi? Məmnuniyyətlə. Slovaklara kömək edərikmi? Məmnuniyyətlə. Biz bunu tez edə bilərik. Müqavilə bağlaya, işi tez qura bilərik".

Qeyd edək ki, Davosda iki prezidentin görüşdüyünə dair məlumat açıqlanıb, lakin detallara toxunulmamışdı. Zelenskinin açıqlaması göstərir ki, qaz məsələsi müzakirə olunub.

Qeyd edək ki, Ukrayna yanvarın 1-dən Rusiya qazının öz ərazisindən nəqlini dayandırıb. Bu, Slovakiya və Macarıstanın qaz təminatına ciddi təsir edib. Amma Macarıstanın Türk axını vasitəsilə Rusiya qazını almaq imkanı var, ötən il bu xəttlə 6,4 milyard kubmetr qaz alıb. Türkiyə tərəfi bu il daha çox həcmi nəql etməyə hazırdır, lakin bu qaz Ukrayna üzərindən gələndən cüzi baha başa gəlir. Macarıstan bunu bəhanə edərək Ukraynaya təzyiq göstərməyə çalışır. Slovakiyaya digər ölkələr qaz təminatında dəstək təklif etsələr də, bu ölkənin rusiyapərəst rəhbərliyi razılaşmamağa çalışır. Aydın məsələdir ki, burada hər iki ölkənin məqsədi Rusiyanın mühüm qazanc mənbəyinin əldən çıxmamasında Moskvaya yardım etmək, əvəzində daha ucuz qaz almaqdır.

Azərbaycana gəlincə, Bakı ötən il ərzində Ukrayna üzərindən qaz nəqlinin dayandırılmaması üçün Moskva və Kiyev arasında uzunmüddətli danışıqlarda vasitəçilik etdi. Lakin Kiyev birmənalı şəkildə Rusiyanın illik həcmi 15 milyard kubmetr təşkil edən qazının Avropaya ötürülməsində iştirakı dayandırdı.

Xarici agentliklər, həmçinin Slovakiyanın baş naziri Fitso ötən ilin mayından Azərbaycan qazının Ukrayna üzərindən Avropaya çatdırılması məsələsinin ictimai müzakirələrini təşkil edirlər. Xarici agentliklər bildirirdilər ki, Avropa İttifaqı Ukrayna nəql sisteminin boş qalmaması, həmçinin Rusiya qazından asılı olan Avstriya və Slovakiyanı qazla təmin etmək üçün alternativlər axtarır. Brüsseldə Rusiyanın öz qazının nəql olunmadığı şəraitdə Ukrayna nəql sistemini sıradan çıxaracağından ehtiyat edirlər. Bunun qarşısını almaq üçün Rusiyanın olmasa da, Moskvanın isti münasibətinin olduğu başqa bir mənbədən qaz tədarükünün yoluna qoyulması əsas çıxış yolu hesab edilir. Belə bir alternativ kimi ən çox Azərbaycanın adı hallanır. Ukrayna tərəfi də bir neçə dəfə açıqlama verərək Azərbaycan qazının öz ərazisindən nəqlinə rahatlıqla şərait yaradacağını açıqlayıb.

Belə müzakirələrin fonunda xarici mediada Azərbaycanın Ukrayna üzərindən nəql etməyə yetərincə qazının olmadığına dair çoxsaylı materiallar yayımlanır. Onlar iddia edirlər ki, əgər Rusiya, Ukrayna və Azərbaycan qaz nəqli barədə razılığa gələcəklərsə, Bakı qazı Moskvadan alıb Avropaya satacaq.

**Enerji məsələləri üzrə ekspert İlham Şabanın sözlərinə görə, bu deyilənlər artıq il yarımdır ki, Qərb mediasında, "ofis" ekspertləri arasında kök atıb:** "Haradan qaynaqlanması isə sirr deyil - təbii ki, siyasi dairələrdən gəlir. Elə bilməyin ki, Qərbdə bütün media qatığı ağ adlandırır, ürəkləri istəyəndə hansı rəngdə desən bəzəyirlər. Bu qaz məsələsi ilə bağlı Azərbaycan hökuməti bir tutarlı konfrans keçirə bilər, sandığı açıb, panbıqları ortaya qoya bilər. Yoxsa hər şeyi Prezident İlham Əliyev bəyan edir. Amma dövlət başçısının dediklərini oralarda siyasi bəyanat kimi qəbul edirlər. İnandırmaq üçün gərək heç kəsdə zərrə qədər də şübhə yeri qalmayacaq dəlil-sübut və faktları açıqlayasan. Məsələn, yanvarın 17-də Moskvada bəyan edildi ki, Rusiya Azərbaycan üzərindən İrana 55 kubmetrədək qaz nəql etmək niyyətindədir. 10 gün keçib və Azərbayvan tərəfi bunu şərh etməyib. Belə məsələlər də dediyim ekspertlər və dairələr tərəfindən öz maraqlarına görə yozulur da, yönləndirilir də"...

**Ekspert qeyd edir ki, Azərbaycanın Avropaya onların istədiyi qədər - ildə 20 milyard kubmetr qaz vermək üçün hasilata investisiya yatırılmalıdır**: "Ötən il Abşeron yatağının işlənməsinin ikinci mərhələsi üzrə kommersiya sazişi imzalanmadı. Bu saziş Azərbaycan hökuməti ilə səhmdarlar və alıcılar arasında imzalanmalıydı. Buna da Avropa Komissiyasının tələbləri imkan vermədi. Komissiya şirkətlər qarşısında tələb qoyub ki, uzunmüddətli sazişlər əsasında qaz alqı-satqısı həyata keçirməsinlər. Bu səbəbdən SOCAR məcbur oldu 2024-cü ildə BOTAŞ-la müqavilə imzaladı. Azərbaycan ayrı-ayrı ölkələrlə müqavilələr əsasında ixrac həcmlərini artırır. TAP-ın ötürücülük gücü 13 milyard kubmetrə qədər çatdırılıb. Qalan hissəni Türkiyədən Bolqarıstana gedən 3,5 milyard kubmetr gücündə kəmərlə ixrac edirik. Yəni ixrac diversifikasiya olunub. Bu, bizə imkan verir ki, Cənub Qaz Dəhlizini genişləndirmədən hasil etdiyimiz qazı müqavilə imzalanan ölkələrə çatdıraq".

Yeri gəlmişkən, Azərbaycan Avropaya qaz nəqli ilə bağlı üzərinə götürdüyü bütün öhdəlikləri icra edir. Məsələn, Azərbaycan qazının Bolqarıstana tədarükünün illik həcmi iki dəfə artıb və 2024-cü ildə 2 milyard kubmetr təşkil edib. Bunu **Azərbaycanın Sofiyadakı səfiri Hüseyn Hüseynov** Bolqarıstanın "Nova" nəşrinə bildirib.

**Səfirin sözlərinə görə, Bolqarıstana qaz Avropa bazar qiymətindən ucuz satılır:** "Biz Azərbaycan qazının Bolqarıstana tədarükünü artırmışıq və qiymətlər də münasibdir - SOCAR qazının bazar qiymətindən nisbətən aşağıdır. Biz tədarükləri 1 milyard kubmetrdən 1,2 milyard kubmetrə, sonra isə 1,5 milyard kubmetrə çatdırdıq, ötən ilin sonunda isə Azərbaycan qazının həcmi 2 milyard kubmetrə çatıb. Bu o deməkdir ki, biz Bolqarıstanın təbii qaza olan ehtiyacının əsas hissəsini qarşılayırıq".

**Səfir xatırladıb ki, 2013-cü ildə Azərbaycan Dövlət Neft Şirkəti "Bulgargaz" şirkəti ilə Bolqarıstana illik 1 milyard kubmetr qaz tədarükü üçün 25 illik müqavilə imzalayıb**: "Lakin Bolqarıstanda baş verən enerji böhranından sonra və Sofiya hakimiyyətinin tələbi ilə biz qaz tədarükünü artırmağa başladıq, çünki sənayesi təbii qazdan asılıdır".

**O, həmçinin xatırladıb ki, 2022-ci ildə Azərbaycan Aİ ilə enerji sektorunda strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalayıb:** "Biz ilkin olaraq Trans-Adriatik Boru Kəməri ilə Aİ-yə 10 milyard kubmetr təbii qaz tədarük etməyi gözləyirdik, lakin sizin regionunuzda və bütövlükdə Avropada vəziyyəti nəzərə alaraq, biz Avropa bazarına qaz tədarükünü artırdıq. Nəticədə ötən ilin sonuna qədər bu, təxminən 13 milyard kubmetr təşkil edib".

**Hüseynov qeyd edib ki, Azərbaycan hazırda "12 Avropa ölkəsinin ərazisinə" qaz ixrac edir:** "Bu baxımdan Bolqarıstan Azərbaycan tərəfindən qaz tranziti baxımından çox mühüm ölkə kimi qəbul edilir, çünki ölkəniz inkişaf etmiş daxili qaz nəqli şəbəkəsinə malikdir",.

Qeyd edək ki, 2023-cü ildə Bolqarıstan Azərbaycandan 1 milyard 250 milyon kubmetr qaz alıb.

Hazırda Azərbaycanın 10 Avropa ölkəsi ilə qaz təchizatı müqaviləsi var: İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Slovakiya və Şimali Makedoniya. Bu ölkələrdən üçü ilə - İtaliya, Yunanıstan və Bolqarıstanla sabit tədarük həcmi ilə uzunmüddətli müqavilələr, qalanları ilə isə dəqiq alış həcmi olmayan müqavilələr imzalanıb. Bakı bu müqavilələrə tam əməl edir. Özü də xarici medianın yazdığının əksinə olaraq, Rusiya qazı hesabına deyil. 2024-cü ildə Azərbaycan Rusiyadan cəmi 571 milyon kubmetr qaz alıb. Ölkənin özünün qaz hasilatı 2023-cü ildəkindən 2 milyard kubmetr çox - 50,3 milyard kubmetr olub. Bunun 13,3 milyard kubmetri "Azəri-Çıraq-Günəşli", 27,8 milyard kubmetri "Şahdəniz", 1,5 milyard kubmetri "Abşeron" yatağı, 7,7 milyard kubmetri isə SOCAR üzrə hasil olunub. Hesabat dövründə xaricə qaz satışı 25,2 milyard kubmetr təşkil edib ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 5,8 faiz çoxdur. Bunun 12,9 milyard kubmetri Avropaya, 9,9 milyard kubmetri Türkiyəyə, 2,4 milyard kubmetrdən çoxu isə Gürcüstana satılıb. Türkiyəyə TANAP-la bu müddətdə 5,6 milyard kubmetr qaz nəql olunub.

Beləliklə, Azərbaycanın qaz ixracı həcmi ilə Rusiyadan alınan qaz arasında 50 dəfədən çox fərq var.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**



# Bu şəxslər müddətli həqiqi hərbi xidmətə göndəriləcək

**Azərbaycanda xaric edilən kursantlar müddətli həqiqi hərbi xidmətə göndəriləcək.**

Musavat.com xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanuna dəyişikliyi təsdiqləyib.

**Ötən həftəsonu Türkiyənin xarici işlər naziri Hakan Fidanla ABŞ-ın dövlət katibi Marko Rubio arasında telefon danışığı olub. Söhbət zamanı Azərbaycan-Ermənistan sülh danışıqları da diqqət mərkəzində saxlanılıb. Rubio ölkəsinin Azərbaycanla Ermənistan arasında "dayanıqlı və ləyaqətli sülh" istədiyini vurğulayıb.**

# İşğalçı Ermənistan üçün "ləyaqətli sülh" istəyi absurdu

## ABŞ onu necə təsəvvür edir?; "İrəvana real təzyiqlər olmasa..."



İşğalçı Ermənistan üçün ləyaqətli sülh. Bu nə deməkdir? Həqiqət belədir ki, beynəlxalq hüquqa əsaslanan dayanıqlı və ləyaqətli sülh müqaviləsinin imzalanmasını məhz rəsmi İrəvan ləngidir. İlk növbədə də öz konstitusiyasından Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları ilə bağlı müddəaları çıxarmaq istəməməsi ilə. Bunsuz ABŞ-ın yeni administrasiyası Bakı və İrəvanı barışdırmağı, görəsən, necə təsəvvür edir? Yeni hökumət Ermənistana öz konstitusiyasını beynəlxalq hüquqa uyğunlaşdırmağın vacibliyini başa sala biləcəkmi?

Rubionun sözlərini şərh edən erməni türkoloq Ruben Safrastyanın iddiasına görə, ABŞ çalışır ki, Azərbaycanla sülh müqaviləsi imzalayarkən Ermənistan özünü məğlub kimi hiss etməsin. "Düşünürəm ki, bu çox vacib bir məqamdır. ABŞ-ın bu mövqeyinin hansı nəticəyə gətirib çıxaracağını deyə bilmərəm, amma hər halda, biz bunu diqqətə almalıyıq. Bölgəmizdə bir neçə mühüm proses gedir, o cümlədən Qərblə Rusiya arasında region uğrunda mübarizə davam edir. Eyni zamanda Türkiyə, İran və Rusiya regiona ortaq yanaşmalar formalaşdırmağa çalışır. Cənubi Qafqaz geostrateji inkişafın yeni mərhələsinə qədəm qoyub", - deyə o vurğulayıb.

Safrastyan hesab edir ki, ABŞ hələ də İran və Rusiyadan yan keçməklə Ermənistan üzərindən Orta dəhliz təşəbbüsündə maraqlıdır: "Düşünürəm ki, amerikalıları layiqli sülhlə bağlı ritorikadan istifadə etməyə məcbur edən məhz budur".

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a bildirdi ki, ABŞ-ın yeni hakimiyyətinin Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasında həqiqətən maraqlı olduğunu söyləmək hələ tezdir:** "Donald Tramp prezident fəaliyyətinə cəmi bir həftədir başlayıb. Təyinatlar həyata keçirilir, yeni administrasiya formalaşdırılır. Təyinatlarda qatı ermənipərəst fiqurların da yüksək vəzifələrə sahiblərdirildiyi müşahidə edilir. Əgər Tramp hakimiyyəti doğrudan da Ermənistanla Azərbaycan arasında ədalətli sülh müqaviləsinin imzalanmasında da maraqlıdırsa, o zaman ilk növbədə İrəvana təsir etməlidir. Çünki sülh sazişinin imzalanmasından yayınan Ermənistandır. Paşinyan hökuməti sözdə sülh sazişini istədiklərini bəyan etsə də sülh sazişinin imzalanması üçün praktiki addımlar atmaqdan ən müxtəli bəhanələrə yayınır. Uzun müddətdir məhz bu cür taktikanı seçiblər. Sülh müqaviləsi üçün əsas əngəl Ermənistan Konstitusiyanın preambula hissəsində Azərbaycana qarşı ərazi iddiasını əks etdirən müddəadır. Bu müddəa ləğv edilməlidir. Ermənistan hakimiyyəti isə onu ləğv etməmək üçün müxtəlif əsassız bəhanələr irəli sürməkdə davam edir. Azərbaycan təbii ki, ləyaqətli sülh müqaviləsinin tərəfdarıdır. Ermənistanın ləyaqətini, ərazi bütövlüyünü pozacaq sülh müqaviləsini istədiyimizi heç zaman dilə gətirməmişik. Çünki bizim mövqeyimiz bəllidir. ABŞ-dan qarşıdakı dövrdə İrəvana sülh müqaviləsinin imzalanması üçün real təzyiqlər olmasa, bu, demək olacaq ki, Tramp administrasiyası da Bayden administrasiyası kimi sülh müqaviləsinin imzalanmasında əslində maraqlı deyil. Bayden Ermənistana konstitusiyanı dəyişmək üçün heç bir təsir göstərmədi. Əksinə, Ermənistanı açıq müdafiə siyasəti yürütməklə Paşinyan iqtidarını arxayınlaşdırdı. Paşinyan iqtidarı ABŞ, Fransaya arxalanaraq sülh müqaviləsini imzalamadı. Tram da eyni yolu seçəcəksə, Ermənistan yenə sülhdən uzaqlaşacaq".

Politoloq qeyd etdi ki, Azərbaycanla sülh müqaviləsi imzalanmadan Ermənistanın böyük layihələrdə iştirak etməsi asan deyil. Bunu ABŞ artıq başa düşməlidir. ABŞ uzun müddətdir ki, İran və Rusiyadan yan keçməklə Ermənistan üzərindən Orta dəhliz layihəsinin reallaşdırılmasında maraqlı olduğunu nümayiş etdirir. Lakin arzularını gerçəkləşdirə bilmir. Nə qədər Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamayıb, Türkiyə ilə münasibətlərini normal vəziyyətə gətirməyib, dalan dövlət olaraq qalacaq.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

---

**Əgər bütün siyasi gözləntilər və hətta ciddi proqnozlar doğrulsaydı, siyasət tamam maraqsız olardı. Ona görə də sonuncu Davos toplantısında Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında görüşün baş tutmaması bizə ən azı faciə kimi görünmür: bu dəfə görüşmədilərsə, deməli, gələn dəfə görüşərlər...**

**Hüseynbala SƏLİMOV**

# Davosda görüş niyə baş tutmadı?..



Amma siyasi təhlil adamları bir az qəliz tayfadır, onlar bütün məsələlərin kökünə getməyi (lap böyük B.Pasternak demişkən) sevirlər, həm də ona görə ki, belə olan halda proseslərin gələcək inkişafı ilə bağlı nəsə demək olur, əks təqdirdə, nə qədər çalışırsansa çalış, tendensiyanı tuta bilmirsən.

Ona görə də İsveçrədə görüşün baş tutmaması səbəbləri üzərində çox baş sındırandan sonra demək olar ki, əksər müşahidəçilər bu fikrə gəldilər ki, əsas səbəb regiondakı və dünyadakı siyasi palitranın hələ tam aydınlaşmamasıdır: yeni ABŞ prezidentinin hakimiyyətə başlaması ilə çox şeylərin dəyişəcəyi gözlənir, amma onun inaqurasiya mərasimindən cəmi bir neçə gün keçdiyindən hələ bir müddət gözləmək lazımdır ki, görək, ABŞ-Çin, ABŞ-İran və ən əsası da ABŞ-Rusiya münasibətləri hara və necə istiqamət alacaqdır?

Xüsusilə də qeyd etmək lazımdır ki, Cənubi Qafqazda "suların durulması" üçün Vaşinqtonla Moskva arasındakı bir çox məqamlara aydınlıq gəlməlidir.

Tramp seçki dövründə deyirdi ki, Ukrayna müharibəsini bircə günə dayandıracaq! Amma seçki çıxışları, hətta vədləri bir şeydir, real siyasət isə tamam başqa! Hətta onda ciddi təhlilçilər Trampı böyük siyasətdə naşı adam hesab etməsələr də onun bu cür bəyanatlarını ciddiyə almırdılar. İndi hamı səbrsizliklə Trampla Putin arasında ilk təmasların yaranmasını gözləyir. Əlbəttə, hətta bu halda belə ilk təmasların dərhal nəticə verəcəyinə heç kim inanmır, gəl, əsas məsələ prosesi başlamaqdır. O isə bəzi mülahizələrə və hətta proqnozlara görə, fevralın əvvəllərində başlaya bilər.

Amma burada bir ciddi məqam var. Regionda və dünyada hansı geosiyasi fonun bərqərar olması çox vacib məsələdir. Bu baxımdan Cənubi Qafqazın da kimin nəzarətində qalacağı və yaxud da kimin nəzarətinə keçəcəyi heç də maraqsız məsələ deyil.

Amma Cənubi Qafqazdakı münasibətlərə mövcud geosiyasi konyunkturanın predmeti kimi baxmaq istəməzdik: harada hansı böyük gücün üstünlük təşkil etməsindən, onların arasında hansı münasibətlərin yaranmasından asılı olmayaraq region dövlətləri çalışmalıdırlar ki, ilk növbədə öz aralarında anlaşma yarada bilsinlər, çünki əks təqdirdə, onların böyük güclər arasında adi oyuncağa çevrilmək təhlükəsi var, bu isə onların təhlükəsizliyi üçün çətin, yaxşı nəsə vəd edir, əksinə, region dövlətlərinin arasında anlaşmanın olması, regionda sülhün və əməkdaşlığın hökm sürməsi onları həm də geosiyasi çəkişmələrin də fəsadlarından qoruya bilər.

Düşünürük, reallıqdan, real Ermənistandan çox danışan baş nazir Paşinyan bunu heç vaxt unutmamalıdır - əlbəttə, o, ürəyində hansısa bir revanşist planlar qurmursa, həqiqətən də regional sülhə və əməkdaşlığa can atırsa, çünki dünyada hansı geosiyasi konfiqurasiyanın bərqərar olmasından asılı olmayaraq bu regionda Azərbaycan, Türkiyə və eləcə də Ermənistan həmişə mövcud olacaq və əgər onlar mövcud olacaqlarsa, aralarında sülhün və əməkdaşlığın hökm sürməsinə ehtiyac olacaq. Yəni bunu Paşinyan anlamır? Məgər bunun üçün regionda və dünyada kimin - Rusiyanın, yoxsa ABŞ-ın üstələcəyini gözləməyə lüzum var?..

Üstəlik, Nikol anlamırmı ki, siyasətdə zaman mühüm amildir, özü də təkcə o mənada yox ki, heç bir siyasətçinin sərəncamındakı vaxt sonsuz deyil, həm də o mənada ki, gərək, hər şeyi vaxtında, məqamında edəsən, çünki vaxtın da əlverişli-əlverişsiz olduğu vaxtlar olur.

Bir ildən sonra Ermənistanda növbəti seçkilər olacaq. N.Paşinyan özü bu günlərdə bəyan etdi ki, ölkədə növbədənkənar parlament seçkiləri gözlənilmir. Bəs daxili siyasi konfiqurasiyanı saxlamaq necə, mümkün olacaqmı? Axı hamı bu fikirdədir ki, Paşinyanın partiyası "nüfuzsuzların içində ən nüfuzlu" statusundadır!

Bəli, bir il ərzində çox dəyişə bilər, üstəgəl, bəzi hallarda real alternativin olmaması da hansısa siyasi vektora üstünlük qazandırır. Amma Paşinyanın bu xüsusda bu dəfə də bəxti gətirəcəkmi? Doğrusu, bu sualın cavabını heç Ermənistanda da heç kim dəqiq bilmir...

O ki qaldı indiki dünya geosiyasi konyunkturasının dəyişə bilməsinə, bizə elə gəlir ki, Trampın siyasi fokuslarına tamam aludə olmaz olmaz, ən azı ona görə ki, onun sərəncamında cəmi dörd il vaxt var və hətta o, nəsə ciddi bir şey etsə belə dörd ildən sonra başqa birisi gəlib onun da qərarlarının yüzünü bircə saatın içində dəyişə bilər, necə ki, o özü bunu etmişdi və indi də edir.

Belədəsə, biz daim Trampı ABŞ millətçisi hesab etmişik - bəli, millət varsa (hətta o, nisbətən gənc olsa belə!), millətçinin də olması təəccüblü görünməməlidir.

Amma bizə elə gəlir ki, ABŞ millətçisi bütün hallarda rəhmətlik Jirinovskidən və yaxud da Türkmənbaşıdan, hətta fransız le Pendən də fərqlənməlidir.

Yeri gəlmişkən, millətçilərin ən sevimli məşğuliyyəti xəritə qarşısında vaxt keçirməkdir.

Yadınıza gəlirmi Vladimir Jirinovski nələr deyirdi? Məsələn, təklif edirdi ki, Rusiya Alyaskanı ABŞ-dan alsın! Saparmurad Türkmənbaşı isə xəritəni qabağına qoyub Xəzərdəki bütün neft-qaz yataqlarına yeni adlar verirdi! Burada necə yada salmayasan ki, iranlı mollalar da bir ara Xəzərin adını dəyişib Mazandaran qoymağı təklif edirdilər!..

İndi Donald Tramp da az qala, bunu edir. Gülməlidir, deyilmi? Yoxsa Amerikanın da öz saparmuradları - türkmənbaşıları olur?..

# Zəngəzur dəhlizinin önü açılır - Bakı və Ankara əqrəbləri tutuşdurur...

## Bu koridor Türkiyə və Azərbaycanın gələcəkdə İrandan keçən marşrutlardan tamamilə imtina etməsinə gətirəcək, Tehranın onu sonadək əngəlləməsi üçün kifayət qədər imkanı yoxdur, boynundakı iqtisadi ilgək daha da sıxılacaq

**"Suriyada rejim dəyişikliyi Türkiyəyə əsas regional rəqibi İranla qarşıdurmada həlledici üstünlük əldə etməyə imkan verəcək mühüm bir mərhələdir. Bu da öz növbəsində Zəngəzur dəhlizinin açılmasına və Tehranın Cənubi Qafqazın ticarət və nəqliyyat sektorundan sıxışdırılmasına səbəb ola bilər".**

"Yeni Müsavat" bildirir ki, bu barədə Londonda çıxan müxalif mövqeli İran internet nəşri "Kayhan London" bildirib. Nəşrə görə, Suriyada Ankaranın dəstəklədiyi qüvvələrin hakimiyyətə gəlməsi yaxın gələcəkdə bir neçə sahəyə öz təsirini göstərəcək. Xüsusilə İran yük maşınları Türkiyə ərazisindən tranzit üçün daha yüksək vergi və rüsumlar ödəməli olacaq. "Kayhan London" yazır ki, hər iki ölkə uzun müddətdir regionda güclü strateji mövqelər tutur. O sırada İran "enerji dəhlizi", Türkiyə isə Asiya ilə Mərkəzi Asiyanı birləşdirən həyati bir körpüdür.

Məqalədə habelə qeyd olunur ki, Türkiyə ilə İran arasında gərginlik yaradan məqamlardan biri Zəngəzur dəhlizidir ki, bu da Tehranın fikrincə, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin Ermənistan ərazisindən keçən qolunu təhdid edir, həmçinin Türkiyə ilə Azərbaycan arasında əlaqələri gücləndirir. Bu da İranın regional rolunu zəiflədir. Çünki bu dəhlizin açılması Türkiyə və Azərbaycanın gələcəkdə İrandan keçən marşrutlardan tamamilə imtina etməsinə gətirəcək. Sirr deyil ki, Zəngəzur dəhlizi bu gün sıx və məhsuldar Azərbaycan-Türkiyə əməkdaşlığının simvolu kimi qəbul edilir. Eyni zamanda məqalədə vurğulandığı kimi, bu, həm də İran üçün bir təhdiddir: "Birincisi, Zəngəzur dəhlizi İranın şimal-qərb sərhədini təhdid edə bilər. Axı onun İran ərazisinə yaxınlığı Türkiyə və NATO-nun bölgədəki təsirini gücləndirir, həmçinin Şimali Atlantika Alyansının qoşunlarının birbaşa İran sərhədində peyda olmasına səbəb ola bilər. İkincisi, dəhliz İranın Ermənistanla kommunikasiyalarını çətinləşdirir. Ermənistan isə Tehran üçün həm Qərb, həm də Şimalla mühüm həlqədir".

**Nəşr ardınca vurğulayır ki, İran Zəngəzur dəhlizinin açılması ilə bağlı risklərdən xəbərdardır və bu, onun Azərbaycan və Türkiyə ilə münasibətlərində hazırkı gərginliyin səbəblərindən biridir:** "Bununla belə, dəhlizin açılmasına qarşı sərt bəyanatlarına baxmayaraq, Tehranın onu sonadək əngəlləməsi üçün kifayət qədər imkanı yoxdur. Ən əvvəl də ona görə ki, İran beynəlxalq sanksiyalardan yan keçmək üçün Türkiyədən çox asılıdır. Türkiyə ilə hər hansı ciddi gərginlik İranın boynundakı iqtisadi ilgəyin daha da sıxılması deməkdir". Yada salaq ki, bu il yanvarın 7-də yerli telekanallara müsahibəsində Prezident İlham Əliyev "Zəngəzur dəhlizi açılmalıdır və açılacaq" demişdi. Azərbaycanlı təhlilçilər dəhlizlə bağlı nəşrin mövqeyini bölüşürmü? Tramp hökuməti bu məsələdə Bakı və Ankaraya nə dərəcədə dəstəkçi olacaq?

**Professor Qabil Hüseynlinin "Yeni Müsavat"a bildirdiyinə görə, Azərbaycan Ağbənd istiqamətində işlər həyata keçirir və büdcədən vəsait gedir. Onun fikrincə, əgər Zəngəzur dəhlizi açılmayacaqsa, Azərbaycan əsla bu pulu xərcləməzdi:** "Dövlət başçısının müsahibəsində dediyi də əminlikdən irəli gəlir. Prezident dünyada və regionda gedən siyasi prosesləri dərindən analiz edən, kifayət qədər məlumatlı siyasi xadimdir. Cənab İlham Əliyev əmindir ki, bu prosesin zirvəsində Zəngəzur koridoru işə düşəcək. Çünki iqtisadi sifariş belə tələb edir".

**Q.Hüseynlinin sözlərinə görə, Zəngəzur dəhlizi Orta dəhlizin bir hissəsidir:** "Söhbət beynəlxalq bir proyeksiyadan gedir. Bu logistika Çindən Avropaya qədər uzanan marşrutdur. Təbii ki, layihənin işə düşməsində maraqlı olan qlobal güc mərkəzləri var. Ermənistan, ya İran kimdir ki, belə nəhəng tranzitin qarşısını ala bilsinlər? Yeni gec-tez Orta dəhlizin bir hissəsi olan Zəngəzur dəhlizi də fəaliyyət göstərəcək. Sadəcə, dəhlizə nəzarət uğrunda rəqabət gedir deyə proses yubanır. Ancaq cənab Prezident də arxayındır ki, kimin nəzarət etməsindən asılı olmayaraq, dəhliz açılacaq. Şübhəsiz ki, burada iqtisadi üstünlük qazanan təkcə Türkiyə və Azərbaycan olmayacaq, Ermənistan da fayda götürəcək".

**Professor hesab edir ki, İran dəhlizin açılmasına qarşı deyil, sadəcə, oradan pay istəyir:** "Azərbaycan İranla "Araz dəhlizi" layihəsi üzərindən əhəmiyyətli logistika təşkil edir. Eləcə də Şimal-Cənub yolu var. Yanvarın 28-də Rusiya, İran və Azərbaycan nəqliyyat nazirləri bu məsələni müzakirə edəcəklər. Söhbət 15 milyon ton yükün daşınmasından gedir. Ötən həftə baş nazirin müavini Şahin Mustafayev Tehranda keçirilən tədbirdə iştirak etdi və İran anlamaqdadır ki, tranzit rolunda Bakı nə qədər vacibdir. Hazırda şimal və cənub qonşularımız sanksiya altındadır deyə daha çox logistikaya ehtiyac duyurlar. Bu baxımdan, Rusiya və İran Zəngəzur dəhlizi ilə bağlı bir mövqedən çıxış etməsələr də, burada Tehrana pay verilməsi ilə konsensus mümkündür".




**Q.Hüseynli Zəngəzur dəhlizinin indiki şəkildə açılması ilə İranın təbii ki, izqoy vəziyyətinə düşəcəyini istisna etmir:** "Burada Türkiyə və Azərbaycanın əhəmiyyəti, iqtisadi dominantlığı artacaq. Tehranı da narahat edən bölgədə Türkiyənin və Azərbaycanın ekonomik hegemonluğunun güclənməsinin olacağı "riski"dir. Ona görə bu dəhlizdən onlar da pay qoparmaq istəyirlər. Bütün hay-küy, həşir qoparılması buradan qaynaqlanır. İrandan əleyhimizə təhdidlər, ittihamların davam etməsinin səbəblərindən biri də Zəngəzur dəhlizi mövzusudur. Bütün hallarda, Türkiyə və Azərbaycan bölgədə yeni bir siyasi konfiqurasiya yaradırlar. Türk Dövlətləri Təşkilatı platforması bu siyasətdə önəmli faktdır. Onun siyasi-iqtisadi əhəmiyyəti getdikcə artır, bu da İranın ürəyincə deyil. İran Ermənistana dəstəyi də dəhlizin açılmaması üçün artırır. Bununla belə, Zəngəzur dəhlizi bir hadisədir və onun açılması qaçılmaz prosesdir. Sadəcə, bu strateji rəqabət regionda gərginliyi artıracaq".

Xatırladaq ki, SEPAH-a bağlı "Tasnim" Agentliyi bunula bağlı daha bir geniş məqalə ilə çıxış edib. Ekspert Mehdi Mahmudi Muntaser tərəfindən qələmə alınan yazı "İran Zəngəzur təhlükəsini necə zərərsizləşdirə bilər?" başlığı ilə yayınlanıb. O qeyd edib ki, Naxçıvanla Azərbaycanı birbaşa birləşdirən dəmir yolu və avtomobil yoluna ehtiyac var. "Bu həm də Azərbaycanın ərazi bütövlüyü üçün vacib amildir". Muntaser bildirir ki, Azərbaycanın Zəngəzur dəhlizini açmaq istəyi anlaşılandır. "Lakin Bakı bunun üçün Ermənistanın ərazisinin bir hissəsini özünə götürməyə çalışır. Bu ssenari İran üçün bir çox təhdid və təhlükələrə səbəb olacaq". İranlı ekspert İranın ənənəvi sözlərini qeyd edərək, "Zəngəzur dəhlizi açılarsa, İranın Avropaya əsas çıxışı bağlanacaq" fikrini önə çəkib. Daha sonra isə vurğulayıb ki, bu, digər tərədən, Bakı-Ankara ittifaqı ilə əhatələnəcək". Munatser yazısında Xəzər dənizi deyil, "Mazandaran dənizi" sözündən də istifadə edib. Və bildirib ki, Azərbaycan bu addımı ilə NATO-nu "Mazandaran dənizi"nə (Xəzər dənizindən söhbət gedir) çıxaracaq. O həmçinin "Zəngəzur dəhlizi işə düşərsə, Orta dəhliz açılacaq və bu, İranın "Şərqdən Qərbə" dəhlizinə rəqib olacaq" fikrini də irəli sürüb.

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**



## Hakan Fidandan İran açıqlaması

**"Suriyadakı dəyişiklik İran üçün qonşuluq münasibətləri və regiondakı xarici siyasətini yenidən qurmaq və proqramlaşdırmaq üçün bir fürsətdir". "Yeni Müsavat" xəbər verir ki, bunu Türkiyə xarici işlər naziri Hakan Fidan deyib. Suriyada Əsəd rejiminin devrilməsindən sonra Türkiyə-İran münasibətlərinin durumuna gəlincə, nazir artıq burada Ankara və Tehrana qarşı zidd mövqelərin olmadığını bildirib. Hakan Fidan İranın Suriyada olmadığına da diqqət çəkərək qeyd edib:**

"Buna görə də Türkiyə üçün mənfi durum yaradan bir mühitin parçası deyil. Suriya artıq aramızda mübahisəli ərazi deyil. Hər münasibətdə ziddiyyətli məqamların sayını azaltdığınız zaman pozitivlik daha da artır. Hesab edirəm ki, bu, ölkələrimiz arasında münasibətləri daha da irəli aparmaq üçün bir fürsətdir. Həmçinin bu, İran üçün həm qonşuluq münasibətlərini, həm də regiondakı xarici siyasətini yenidən qurmaq və proqramlaşdırmaq üçün bir fürsətdir. Düşünürəm ki, İran liderləri açıq şəkildə bu yeni fürsətdən yararlanmağa çalışır. Suriyadakı hadisələr İran üçün mənfi bir ünsür kimi görünsə də, mahiyyətcə ayədə (Quranda) olduğu kimidir; şər hesab etdiyin şeylərdə xeyir, xeyir hesab etdiyin şeylərdə də şər var".

❑ **EMİL, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 15 (8625) 28 yanvar 2025

# Baş prokuror AZAL təyyarəsinin qəzasından danışdı

“Qısa müddət ərzində konkret nəticələrin əldə edilməsi təmin olunacaq”



**Aktau yaxınlığında AZAL-a məxsus olan Bakı-Qroznı aviareysini həyata keçirən sərnişin təyyarəsinin qəzasının səbəbləri ilə bağlı qısa müddət ərzində konkret nəticələrin əldə edilməsi təmin olunacaq.**

Musavat.com xəbər verir ki, bunu baş prokuror Kamran Əliyev dünənkeçirilən prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti sahələrində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş Geniş Kollegiya iclasında çıxışı zamanı deyib.

“Ötən ilin sonunda ölkəmiz və xalqımız üçün böyük faciə hesab olunan "Azərbaycan Hava Yolları" aviaşirkətinə (AZAL) məxsus J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən “Embraer 190" təyyarəsinin Rusiya hava məkanında kənar fiziki və texniki müdaxilə nəticəsində Aktau şəhəri yaxınlığında qəzaya uğraması faktı ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən hadisənin səbəblərinin araşdırılması üçün baş nazirin rəhbərliyi ilə Dövlət Komissiyası yaradılmış və dövlət başçısının tapşırığına əsasən cinayət işi başlanılmışdır.

Qazaxıstan Respublikası və Rusiya Federasiyasının prokurorluq və digər aidiyyəti qurumları ilə hadisənin baş verməsinin əsl səbəblərinin müəyyən edilməsi istiqamətində hazırda qarşılıqlı əməkdaşlıq şəraitində istintaq hərəkətləri davam etdirilir və qısa müddət ərzində konkret nəticələrin əldə edilməsi təmin olunacaqdır", - o bildirib.

Xatırladaq ki, 2024-cü il dekabrın 25-də AZAL-a məxsus olan Bakı-Qroznı aviareysini həyata keçirən sərnişin təyyarəsi Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Təyyarənin göyərtəsində olan 67 nəfərdən 38-i həyatını itirib, 29 nəfər isə sağ qalıb.

❑ **Musavat.com**

# Rusiyada axtarışda olan keçmiş məhkəmə hakimi Bakıda saxlanıldı



**Rusiyada axtarışda olan keçmiş məhkəmə hakimi Yelena Xaxalyeva Bakıda saxlanılıb.**

APA xəbər verir ki, bu barədə məlumatı “iz.ru” yayıb.

Billdirilib ki, o, Bakıdan Dubaya uçmaq istəyərkən hava limanında saxlanılıb. Artıq Rusiyanın müvafiq orqanlarından Xaxalyevanın ekstradisiyası üçün zəruri sənədlər istənilib.

Müvafiq qərar da məhz həmin sənədlər təqdim edildikdən sonra veriləcək.

Xaxalyeva dələduzluq və xidməti vəzifəsindən sui-istifadə etməkdə təqsirləndirilir. Rusiya hüquq-mühafizə orqanlarındakı mənbələrin nəşrə bildirdiyinə görə, Xaxalyevanın ekstradisiyası barədə qərarı Azərbaycan hakimiyyəti verəcək. Rostov-na-Don məhkəməsi keçmiş hakim barəsində qiyabi həbs qərarı çıxarıb. İstintaqın versiyasına görə, o, hiylə ilə təxminən 1,2 milyon rubl ələ keçirib, həmçinin iş saatlarının uçotu ilə bağlı sənədləri saxtalaşdırıb. Rusiyanın İstintaq Komitəsi Xaxlayevanın barəsində həbs qərarı çıxarıb və onu beynəlxalq axtarışa verib, 2022-ci il mayın 17-də ona qarşı dələduzluq və vəzifə saxtakarlığı ittihamları irəli sürülüb.



# Paşinyan “soyqırımı” iddiasını dəfn edir - hiyləgər gediş, yoxsa...

**Yusif Bağırzadə:** “Toplum onun hakimiyyətinin Türkiyə ilə münasibətlərinə şübhəli yanaşır”

**Türkiyənin Ermənistanla əlaqələrinin tam həcmdə bərpası üçün əsas şərtlər bəllidir. İrəvan öncə Bakı ilə anlaşmalı, yeni sülh müqaviləsi imzalamalı, həmçinin saxta “soyqırımı” və qonşu ölkələrə qarşı konstitusion ərazi iddialarından imtina etməlidir. Lakin Nikol Paşinyan hökuməti bu yöndə müəyyən cəhdlər etsə də, qulağa xoş gələn bəyanatlar versə də, hələ ki real iş gözə dəymir.**

“Biz "erməni soyqırımı"nın tarixinə qayıtmalıyıq. Nəyin nə üçün baş verdiyini başa düşməliyik".

Bunu Nikol Paşinyan keçən həftə İsveçrədə erməni diasporunun üzvləri ilə görüş zamanı deyib.

O, “erməni soyqırımı” iddiasının tarixinin və necə ortaya atılmasının araşdırılmalı olduğunu bildirib: “Biz bu məsələni necə və kimin köməyi ilə qəbul etdiyimizi bilməliyik. Necə olur ki, 1939-cu ildə bu mövzudan, ümumiyyətlə, heç yerdə bəhs edilmir, amma 1950-ci ildə anidən gündəmə gəlir? Aydınlaşdırılmalıdır”.

Qeyd edək ki, Nikol Paşinyan daha əvvəl Türkiyənin NATO koalisiyasına qoşulduğu ərəfədə “erməni soyqırımı” iddiasının sovet zamanında qəsdən ortaya atıldığını və şişirdildiyini demişdi. Bu yaxınlarda isə o, “soyqırımı” qurbanlarının adbaad siyahısının çıxarılmasının vacibliyindən danışmaqla faktiki saxta iddianı şübhə altına almışdı.

Həmçinin ötən il Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan erməni “soyqırımı”nın beynəlxalq səviyyədə tanınmasının İrəvanın xarici siyasətində prioritet olmadığını söyləmişdi.

Xatırladaq ki, rəsmi Ankara 1915-ci ildə Osmanlıda baş verənlərin ədalətli araşdırılması üçün Ermənistana beynəlxalq mütəxəssislərin də təmsil olunduğu ortaq komissiya yaratmağı, Türkiyə və Ermənistan arxivlərini açmağı təklif edib. Onu da bəyan edib ki, komissiya hansı qərara gəlsə, Ankara onu qəbul etməyə hazırdır. Ancaq İrəvandan səs çıxmayıb. Bu dəfə, nəhayət, səs çıxacaqmı? Yoxsa Nikol Paşinyan yenə blef edir?

**Politoloq Yusif Bağırzadə “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Nikol Paşinyanın zaman-zaman bu mövzuya toxunmasının arxasında təbii ki, konkret məqsədlər dayanır:** “Paşinyan kifayət qədər yaxşı başa düşür ki, Türkiyə ilə münasibətlərin normallaşması və sərhədlərin açılması Rusiya ilə münasibətlərin kəskinləşməsi fonunda Ermənistan üçün həyati əhəmiyyət kəsb edir. Paşinyan onu da yaxşı bilir ki, uzun bir dövr ərzində erməni ictimai şüurunda soyqırımı iddiaları ilə bağlı aparılan təbliğat Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasına mənfi təsir edir. Həm Türkiyə tərəfi ermənilərin soyqırım iddiaları yalanları qaldığı müddətdə Ermənistanla isti münasibətlərə yaxşı baxmır, həm də Ermənistanda toplum Paşinyan hakimiyyətinin Türkiyə ilə münasibətlərinə şübhəli yanaşır.

Türkiyə tərəfinin Türkiyə-Ermənistan danışıqlarında da hər hansı ilkin şərt olmaması tələbinin də məhz elə saxta soyqırım iddiaları ilə bağlı olduğu məlumdur. Bu isə ermənilərdə Paşinyanın Ermənistan maraqlarını satması kimi qiymətləndirilir. Təbii ki, burada xüsusilə kilsənin və Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasını istəməyən qüvvələrin də təbliğatı mühüm rol oynayır.

Ona görə də Paşinyan daxili auditoriyanın bu təsirlərdən çıxması üçün, yəni başqa sözlə desək, özünə qarşı müxalif cəbhənin genişlənməsinin qarşısını almaq üçün zaman-zaman bu cür açıqlamalarla çıxış edir.

Amma bu heç də Paşinyanın səmimi olaraq Türkiyəyə qarşı soyqırımı iddialarından əl çəkməsi kimi qəbul olunmamalıdır. Sadəcə, Türkiyə ilə danışıqlarda mən əlimdən gələni edirəm demək üçün belə bir taktikadan istifadə edir.

“Soyqırımı” iddiaları ilə bağlı əsas hədəf beynəlxalq ictimai rəyi Türkiyəyə qarşı yönləndirməkdirsə, indi bu oyunu faktiki olaraq erməni diasporu öz üzərinə götürüb. Yəni belə demək mümkünsə, Ermənistan hakimiyyəti guya ki, saxta soyqırımı iddialarından əl çəkirmiş kimi görünmək istəsə də, əslində diaspor təşkilatları vasitəsilə bu prosesi davam etdirir".

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Ermənistan Aİ və AİB arasında dəqiq seçim etməli olacaq

**Ermənistanın eyni vaxtda həm AB, həm də AİB-də olmaq imkanı olmayacaq, yəni rəsmi İrəvan tamamilə aydın seçim etməli olacaq.**

Musavat.com xarici agentliklərə istinadən xəbər verir ki, bu sözlər AİB-in işgüzar şurasının icraçı katibi və Rusiya Sənayeçilər və Sahibkarlar Birliyinin (RSSB) icraçı direktoru Sergey Mixneviç tərəfindən səslənib.

Onun sözlərinə görə, mənfi qərar qəbul edilərsə, “itirilmiş” həcmləri kompensasiya etmək problemli olacaq.

Çünki AB ilə daha da yaxınlaşma ilə bağlı qərar qəbul olunarsa, AİB tərəfindən zəruri tarif mühafizəsi tədbirləri tətbiq olunacaq ki, bu da Avrasiya ölkələri ilə ticarətin ciddi şəkildə azalmasına səbəb olacaq.

“Ermənistan iqtisadiyyatının hansı üstünlükləri və potensial itkiləri ola biləcəyinə gəlincə, burada sadəcə bir neçə rəqəm var. Ermənistanın ÜDM-nin mütləq dinamikasına nəzər salsaq, görərik ki, 2015-ci ildən ötən ilə qədər 9,5 milyard dollardan 24 milyard dollara yüksəlib. Rəqəmlər özləri üçün danışır. Ermənistanın AİB ilə ticarəti bütün AB ölkələri ilə ticarətindən təxminən 1,8 dəfə çoxdur. Ona görə də biz gözləyirik ki, erməni dostlarımız öz faydaları və potensial riskləri ilə bağlı qiymətləndirmələrə diqqətlə və praqmatik yanaşacaqlar”, - deyə Mixneviç qeyd edib.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 15 (8625) 28 yanvar 2025

# Səfirliyimizə terror hücumundan iki il ötdü - İranın götürmədiyi dərs

**Azərbaycanın İrandakı səfirliyinə xain terror hücumundan iki il ötür. 2023-cü il yanvarın 27-də səhər avtomat silah və çoxlu sayda güllə daraqları ilə silahlanmış terrorçu Yasin Hüseynzadənin hücumunun qarşısının alınması zamanı səfirliyin mühafizə xidmətinin rəisi Orxan Əsgərov həlak olub, iki nəfər isə yaralanıb.**

Ötən həftə, hadisənin ikinci ildönümü ərəfəsində isə Y.Hüseynzadənin edam olunması ilə bağlı qərar İranın Ali Məhkəməsi tərəfindən təsdiqlənib. Cinayət işi icra olunması üçün məhkəməyə göndərilib. Məhkəmə zərərçəkənlərin yaxınlarını dəvət edəcək. Zərərçəkənlər edamın icrasını tələb etdiyi halda, cinayət işi icra olunması üçün əlaqədar quruma göndəriləcək.

**Zərərçəkən - terror hücumu zamanı şəhid olan Orxan Əsgərovun atası Rizvan Əsgərov edamın icrasını tələb edir:** "Təxminən 1 il yarım öncə İran İslam Respublikasının Baş Prokuror müavini Bakıya gəldi və Azərbaycan Respublikasının Baş Prokurorluğunda görüşümüz oldu. Başsağlığı verdilər və bildirdilər ki, İran İslam Respublikasının qanunlarına uyğun olaraq kompensasiya və ya edam cəzası verilə bilər. Orxan Əsgərovun atası olaraq, şübhəsiz ki, mən həmin dəqiqə edam cəzasını istədim".

**R.Əsgərov qeyd edib ki, bir il yarım öncə bununla bağlı müvafiq sənədlər hazırlandı:** "Mən və kiçik oğlum qisas qismində edam istədiyimizi tələb məktubu kimi yazdıq. İndi isə bu tələbi yenidən istəyirlər. Biz də bu tələb məktubunu yenidən yazacağıq. Biz həmin terror aktını törədən şəxsin edamını istəyirik. Bizim başqa tələbimiz yoxdur".

Qeyd edək ki, faciəvi olaydan sonra İranla diplomatik əlaqələr ən aşağı səviyyəyə endirilib. Səfirliyimiz isə yalnız keçən ilin iyulunda yeni binada fəaliyyətə başlayıb.

Ümumiyyətlə, ötən iki illik müddəti Azərbaycan-İran münasibətləri kontekstində necə səciyyələndirmək olar? Rəsmi Tehran terror aktından gərəkən nəticəni çıxarıbmı? İran tərəfi niyə sifarişçinin axtarışını aparmadı?

Onu da qeyd edək ki, sözdə mehriban qonşuluqdan və dindaşlıqdan danışmağı sevən İran XİN keçən həftə Tehrandakı səfirimizi çağıraraq ona etiraz təqdim edib. Ardınca İranın Bakıdakı müvəqqəti işlər vəkili Azərbaycan XİN-ə dəvət edilib və qarşı tərəfə etiraz bildirilib.

**Azərbaycan Milli İstiqlal Partiyasının lideri, xalq hərəkatının öncül isimlərindən olan Etibar Məmmədov tanınmış politoloq, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlunun Günaz TV-də yayımlanan müəllif verilişində çox maraqlı məqamlara toxunub:** "İran tərəfi münasibətlərin normallaşmasına imkan verməyəcək. Biz xarici siyasətimizi qonşularımızın haqqımızda nə düşündüyündən asılı etməməliyik. Özümüzün strategiyamız olmalıdır. İran bizim üçün problem yaradır. Bunun qarşısını almağın bir yolu var ki, biz də onlar üçün problem yaratmalıyıq. Bizim onlara problem yaratmaq imkanlarımız onlarınkından qat-qat çoxdur. İctimaiyyətə təsir baxımından onların bizim cəmiyyətə təsir gücü bizim imkanlarımız qədər deyil. Düzdür, onlar agentura şəbəkəsi qurublar, yeni cəmiyyətlər formalaşdırıblar, dini təbliğat aparırlar. Lakin yalnız bu vasitələrlə təsir göstərə bilirlər. Çünki onların cəmiyyətə nümunə kimi təqdim edəcəyi heç bir şey yoxdur. Bir nümunələri yoxdur ki, bizə göstərsinlər. Amma bizim cəmiyyətin İran üçün nümunəli yi var. Sərbəstlik, azadlıq, yeni dini azadlıq, dünyəvilik, bir sözlə, hər şey var. Onun üçün bizim təsirlər daha çoxdur. Milli hisslərlə İrana təsirlərimiz daha çoxdur, nəinki farsın Azərbaycana təsiri.

**Etibar Məmmədov:** "İran tərəfi münasibətlərin normallaşmasına imkan verməyəcək"

**Azər Badamov:** "İranın Azərbaycana qarşı baxışlarını dəyişməyin zamanıdır"

**Sona Əliyeva:** "Səfirliyimizə hücum planı ən azından SEPAH-ın və ya ETTALAT-ın binasında hazırlanıb"



Deyirlər ki, dövlət səviyyəsində biz Azərbaycanla dostuq, nə edirlərsə, dini və digər təşkilatlar edirlər. Biz də elə təşkilatlar formalaşdırmalıyıq ki, İrana problem yaratsınlar, bu istiqamətdə fəaliyyətlərini gücləndirsinlər, lazım olan imkanlara və təsir gücünə malik olsunlar..."

**Deputat Azər Badamov "Yeni Müsavat"a Azərbaycan tərəfinin terrorçunun edamını gözlədiyini bildirdi:** "2 il əvvəl Tehranda səfirliyimizə edilmiş silahlı basqın molla rejiminin təşkilatçılığı ilə baş verib. Azərbaycan dövlətinə qarşı törədilmiş bu terror aktına İran dövləti tərəfindən ciddi yanaşılmaması nın nəticəsidir ki, hadisədən iki il keçməsinə baxmayaraq, hələ də cinayətkar layiqli cəzasını almayıb. İran dövləti müxtəlif yollarla cinayətkarı gizlətməyə və cəzadan yayındırmağa çalışdı. Amma dövlətimiz cinayətkarın edam cəzası ilə cəzalandırılmasında israrlıdır və bu məsələ iki dövlət arasında münasibətlərin gələcək inkişafına təsir göstərə bilər. İranda xırda cinayətkarların da edam cəzasına məhkum edilməsi sadə bir məsələdir. Amma səfirliyimizə edilmiş hücumun təşkilatçıları haqqında məlumat verilmir və terrorçu layiqli cəzasına hələ də məhkum edilməyib.

Bəli, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanla İran arasındakı münasibətlər tarixin minimumuna enib. İran Ermənistana və Qarabağdakı keçmiş separatçılara açıq şəkildə dəstək göstərməyə davam etmişdi. Amma dövlət orqanlarımız İranın bu hərəkətlərini faktlarla ifşa etdi. Sonra sərhəddə hərbi təlimlərin keçirilməsinə başlandı. Təbii ki, biz də adekvat addımlar atdıq və heç nədən qorxmadığımızı və lazım gələndə adekvat cavab verməyə hazır olduğumuzu nümayiş etdirdik. İran hərbi demarşların bir nəticə vermədiyini görüb səfirliyimizə hücum təşkil edərək xalqımızı qorxutmağa çalışdı. Əgər İran özünün düşmənçilik yolundan əl çəkməzsə, iki ölkə arasındakı münasibətlərin daha da pisləşəcəyini hesab edirəm.

Əslində Azərbaycan İran üçün etibarlı tərəfdaşdır. İqtisadi əməkdaşlığımızın genişləndirilməsi üçün geniş imkanlar var və hökumətlərarası komissiya bu imkanların reallaşdırılmasına çalışır. Təbii ki, iqtisadi əməkdaşlığımız qarşılıqlı fayda üzərində qurulur. Siyasi münasibətlərin inkişafı isə İranın özünün bizə qarşı münasibətindən asılıdır. Təbii ki, İran siyasi münasibətlərdə yaranmış çatların aradan qaldırılmasına cəhd edərsə, ölkəmiz qarşılıq verməyə hər zaman hazırdır. Azərbaycan Ermənistandan fərqli olaraq öz ərazilərində NATO-nun bazalarını yaratmır. Dövlətimiz müstəqil siyasət yürdür və siyasətimiz heç bir dövlətin maraqlarının əksinə deyil. Bu baxımdan İranın Azərbaycana qarşı baxışlarını dəyişməyin zamanıdır".

**Sabiq deputat, siyasi təhlilçi Sona Əliyeva bu hadisənin sifarişçisinin cənub qonşumuz olduğuna əmindir:** "İki il bundan əvvəl İrandakı hakimiyyət öz tarixi "ənənələrinə" sadiq qalaraq yenə də öz ərazisində səfirliyə hücum aktı həyata keçirdi. Bu, İranın dövlətçilik tarixində ilk hadisə deyil. Vaxtilə Rusiyanın Tehrandakı elçisi, yazıçı Qribayedov da elə səfirlikdə öldürülmüşdü. Tarixi faktlar göstərir ki, İranda bu cür hallar, siyasi fahişəlik xarakteli terraktlar fars şovinist rejiminin ali rəhbərliyi tərəfindən gerçəkləşdirilib. Bu dəfə də belə oldu. 2023-cü ilin yanvarın 27-də baş verən teraktın motivləri göstərdi ki, cinayətkar Yasin Hüseynzadə təkcə bir-iki nəfəri yox, səfirlikdəki bütün şəxsləri öldürmək istəyib. Yaxınlıqdakı İran polisi də hadisə baş verərkən orada idi və prosesə səssiz qalmışdı. Bütün bunlar onu deməyə əsas verir ki, İran polisi də prosesə müdaxilə etməmək üçün qəti təlimat almışdı. Üstəlik, təcili yardım xəstəxanası yaralının ölməsi üçün səfirlik əməkdaşının yarasını sarımaqdan imtina etmişdi. Deməli, səfirliyimizə hücum planı ən azından SEPAH-ın və ya ETTALAT-ın binasında hazırlanıb. Sifarişçi isə elə İran dövlətinin özüdür. Ona görə də bu vaxta qədər qatili qorumaq istəyir və sifarişçini tapmamaq üçün əlindən gələni edir. Sözsüz ki, adını İslam respublikası qoymuş fars dövləti baş verənlərdən nəticə çıxarmayacaq. Yenə də öz ampulasında qalmağa davam edəcək. Amma Tehrandakı rejim unudur ki, Bakı ilə güc və hədə dilində danışmaq qeyri-mümkündür. Çünki Azərbaycan Cənubi Qafqazın açarıdır. İndi Tehran münasibətlərdəki uçurumu aradan qaldırmaq istəyirsə, qatili dərhal edam etməli və ölkəmizə mənəvi ziyanın qarşılığı olaraq kompensasiya ödəməlidir".

❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"



## Peskov: "Rusiya ABŞ-la əlaqələrə hazırdır, ancaq..."

**Rusiya ABŞ-la təmaslara hazırdır, lakin indiyədək Vaşinqtondan hər hansı bir sorğu və ya reaksiya görmürük. Musavat.com xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.**

"Hazırda amerikalılardan heç bir reaksiya almamışıq. Buna görə də öz planımıza uyğun olaraq işləyirik, lakin hazır vəziyyətdəyik. Eyni hazırlığı ABŞ tərəfinin də apardığı görünür. Görünür, müəyyən bir vaxt tələb olunur," - deyə Peskov qeyd edib.

❑ Musavat.com

YENİ MÜSAVAT
N 15 (8625) 28 yanvar 2025

# Xaricə axıtdığımız 2,5 milyardı ölkəmizdə saxlaya bilərikmi? - rəy

## “Bu gün bəh-bəhlə 5-10 manata aldığımız idxal məhsullarını bir neçə il sonra hətta 15-20 manata tapmaqda çətinlik çəkə bilərik”

**Ötən il Azərbaycanda idxalın kəskin artımı ilə yadda qaldı. İdxalına çəkilən xərclər artan məhsullar arasında ərzaq məhsulları da var. Rəsmi statistikaya əsasən, Azərbaycanın ərzaq məhsulları idxalı 2024-cü ildə 2 milyard 474 milyon 815.90 min dollar təşkil edib. Bu, 2023-cü ildəkindən 315 milyon dollar çoxdur.**

Ötən il ərzində ət idxalının dəyəri 86,7 milyon dollardan 129,6 milyon dollara, kərə yağı və süddən hazırlanmış digər yağların idxal həcmi 92,4 milyon dollardan 173,6 milyon dollara, meyvə-tərəvəz idxalı 230 milyon dollardan 282 milyon dollara, düyü idxalı 50,1 milyon dollardan 66,1 milyon dollara, bitki və heyvan mənşəli piylər və yağların idxalı 184 milyon dollardan 226,5 milyon dollara qədər artıb.

Təkcə kərə yağı və süddən hazırlanmış digər yağların idxalı 2024-cü ildə 2023-cü illə müqayisədə dəyər ifadəsində 81 milyon 188 min dollar və ya 87,6 faiz, miqdar ifadəsində isə 13 min 15 ton və ya 78,4 faiz artıb. Bu iki məhsulun idxalı üçün ölkədən xaricə 400 milyon 108 min dollar çıxarılıb. Halbuki uzun illərdir Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə çoxsaylı azadolmalar və dəstək mexanizmləri tətbiq olunur. Əvəzində əksər məhsullar üzrə daxili tələbatın təmin olunması təhlükəsizliyin tələb etdiyi səviyyəyə hələ də çatmayıb.

**İqtisadçı-ekspert Elman Sadıqovun sözlərinə görə, növbəti illər ərzində qlobal iqtisadiyyatda tətbiq olunacaq siyasətlər hər bir ölkənin özünün ərzaq təhlükəsizliyini daxili istehsal hesabına təmin etməsini zərurətə çevirir**: “Aydın olur ki, 2024-cü ildə kərə, bitki yağları, süd və qaymaq üçün ölkədən 400 milyon dollar valyuta çıxıb. Əhalimizin sayını, iqlimi, ölkəmizin maldarlıq sahəsində ənənəvi keçmişini nəzərə aldıqda bu rəqəm yüksəkdir. Digər tərəfdən isə bu rəqəm hazırda ölkəmizdə istehsalla məşğul olan istər fabriklərimiz, istər idxalçılarımız, istərsə də fərdi fermer təsərrüfatlarımıza istehsal üçün böyük potensial bazarın mövcud olduğunu göstərir. İş adamları ilə olan söhbətlər, ölkədə bu sahədə mövcud düşüncələr və bəzi media orqanlarının iqtisadi məsələlərdə qeyri-müəyyən, bəzən ölkənin iqtisadi siyasəti və inkişafına qarşı yönələn siyasətini təhlil etdikcə ciddi risklərin olduğunu böyük narahatlıq hissi ilə müşahidə etməkdəyik”.

**Ekspert bildirir ki, hər bir ölkənin valyutasının gücü istehsalın, ixracın böyüklüyü və həcmi ilə ölçülür:** “İstehsal məşğulluq, idxaldan asılılığın minimum olması deməkdir. Ərzaq istehsalı isə daha zəruridir, vacibdir və ərzaq təhlükəsizliyinin 1 nömrəli şərtidir. Növbəti illərdə qlobal iqtisadiyyatda gözlənilən trendlər qiymətlərin, risklərin artacağını, bəzi ölkələrdə müxtəlif səbəblərdən istehsalın (konkret misalda kərə yağının) azalacağını göstərir. Qiymətlər artsa, həmin 400 milyon dollar gələn illərdə hər il 500-600 milyon dollara çata bilər ki, bu da ölkədən lüzumsuz valyuta axını deməkdir. Ən yaxşı halda belə bu göstərici dəyişməz qalacaq. Böyük itkidir. Digər tərəfdən isə bu potensial bazardan daxili istehsalçıların istifadə etməmələri deməkdir. Digər tərəfdən, güclü istehsal və ixracyönümlü iqtisadiyyatları olan ölkələrin iqtisadi inkişaf tarixlərini öyrəndikdə görürük ki, istehsalın genişlənməsi üçün əsas drayverlərdən biri də daxili istehlak mədəniyyəti, daxili istehsalın təəssübkeşliyidir. Əgər türk qardaşlarımız dünyanın hansı nöqtəsində olmalarından asılı olmayaraq Türk Hava Yolları ilə uçmağa çalışırlarsa, türk məhsullarından istifadəni iqtisadiyyatlarına töhfə kimi dəyərləndirirlərsə, Azərbaycanda yaşayan bir alman (şahidi olduğum hadisədir) özünə ütü lazım olduqda bütün şəhəri gəzib məhz alman ütüsü axtarırsa, bu bir kültürdür, mədəniyyətdir. Bizim düşüncələrimizdə bu kültürün inkişaf etdirilməsinə ehtiyac var. Biz isə əksinə, yerli məhsulu təbliğ edən şəxsi linç etməyə çalışırıq, bəzi media orqanları bu məsələdə əhalini məqsədyönlü və fəal şəkildə yerli istehsala qarşı, yerli istehsalın müxtəlif vasitələrlə təbliğ edənlərə qarşı qoymağa çalışırlar. Yerli istehsalın təbliği və istehlak mədəniyyətinin formalaşması, yerli istehsaldan maksimum istifadəyə çalışmaqla yerli sahibkara dəstək olmaq, məşğulluğun artırılmasına töhfə vermək istiqamətində təbliğat, maarifləndirmə fəaliyyətini həyata keçirmək medianın da əsas vəzifələrindən biridir. Burada narahat edən və ciddi risklərdən biri budur ki, bəzi media orqanları öz verilişlərində yerli istehsalı gözdən salmaq siyasətinə yol verirlər. Bəlkə iqtisadi savadın olmaması səbəbindən bilməyərəkdən belə edilir. Ola bilər. Təsəvvür edək ki, ABŞ-ın CNN kanalı öz vətəndaşlarına ABŞ şirkəti olan Apple məhsullarının baha olduğunu, bu səbəbdən onları almağın doğru olmadığını, digər ölkələrin daha ucuz kompüter və telefon məhsullarını almağın daha doğru olduğunu təbliğ edərsə, bu kanalı 24 saata ABŞ hökuməti ciddi şəkildə cəzalandırar. Hələ Cənab Trampı demirəm. O 24 saata ya üzr istətdirər, ya bağlatmaq məsələsini qaldırar. Düşünürəm ki, ABŞ vətəndaşları da, Senat və Konqres də bu təşəbbüsü məmnuniyyətlə dəstəkləyər. Çünki belə mövqe sərgiləmək faktiki olaraq iqtisadi cinayətdir. Demokratiya başqa, ölkənin iqtisadi vəziyyətinə birbaşa mənfi təsir göstərəcək təbliğatın aparılaraq anarxiyaya yol verilməsi başqadır".



**E.Sadıqov deyir ki, bazar iqtisadiyyatında yaşayırıq**: “İstehsal edən sahibkarlardır, istehlak edən əhali. Əgər sahibkarlar narahat olsalar ki, yüksək investisiya tutumlu kərə yağı istehsalı (mən istehsal dedikdə südçülük, kərə yağı istehsalının A-dan Z-yə qədər klasteri, ekosisteminin bütövlükdə təşkilini nəzərdə tuturam), yeni təklif istehlakla - yeni tələblə təmin olunmasa, o investisiya riskli olar. Biz cəmiyyət olaraq sahibkarlarımıza əminlik hissi verməliyik. Biz media olaraq istehsalla məşğul olan sahibkarlarımızın yanında olduğumuzun mesajını verməliyik. Hazırda dövlət zatən istehsala üstünlük verdiyinin mesajını müxtəlif təşviq mexanizmlərini təklif etməklə verir. Kiçik istehsal müəssisələrimizi aşağılamayaq. Onlara yuxarıdan aşağı baxmayaq. Bu gün bütün dünyanın istehlak etdiyi Çin, Tayvan, Honkonq (Honk Kong), Cənubi Koreya məhsullarının istehsalı vaxtilə kiçik zirzəmilərdə başlayıb. Apple şirkəti kiçik bir avtomobil qarajında, Microsoft isə 1 otaqlı mənzildə başlayıb. Facebookun tarixini haqqında çəkilmiş filmdən bilirsiniz. Yanlış bir fikir var ki, yerli məhsullar daha az keyfiyyətlidir. Vaxtilə Cənubi Koreya hökuməti Hyundai, KİA, Daewoo markalı avtomobillərə satınalmalarda üstünlük verəndə və ya daxili istehlakını təşviq edəndə bəziləri tənqid edirdilər ki, daha keyfiyyətli yapon avtomobillərinə deyil, daha aşağı keyfiyyətli yerli maşınlara niyə üstünlük verək? O zaman istehsal və ixracın mahiyyətini anlayan iqtisadçılar və media istehsal və ixracın ölkənin gələcəyi olacağını, bu gün alaraq uduzduğunuzu düşündüyünüz məhsulların ölkənin iqtisadi gələcəyini təmin edəcəyini bildirəndə idxal tərəfdarları az qala gülürdülər. Bizdə keyfiyyətli ərzaq istehsal edən yerli istehsalçılar var. Hər birimiz tanıyırıq. Sadəcə, o istehsalları genişləndirmək hər birimizdən asılıdır.

Daha yanlış bir fikir budur ki, idxal məhsulu ucuzdursa, mən niyə nisbətən daha bahalı yerli məhsul alım? Yerli məhsul o halda baha olur ki, dövriyyəsi az olur, maya dəyəri yüksək olur. Əgər yerli məhsulun istehlakı yüksək olarsa, marja, maya dəyəri aşağı düşəcək, nəticədə qiymətləri idxal məhsullarına qarşı rəqabətli olacaq. Bu mərhələdə dövlət də müxtəlif proteksionist siyasət alətlərini aktivləşdirərək yerli istehsalı idxal təzyiqinə qarşı qoruyur. İstehlak zəif olduqda isə sahibkar da yüksək risk altında qalır, dövlət də ərzaq təhlükəsizliyini risk altına salmamaq üçün proteksionist siyasət alətlərindən istifadə etməyə çəkinir. Deməli, daha yüksək istehlak, yerli məhsul təəssübkeşliyi qısa müddətdə nisbətən baha başa gələ bilər, amma orta və uzun müddətdə daha ucuz və keyfiyyətli yerli məhsul (daha çox satış genişlənmə, investisiya, yüksək texnologiyaların tətbiqi, peşəkar işçi heyətinin cəlbi deməkdir), məşğulluq, daha çox büdcə daxilolmaları, idxalın azalması və ölkədən daha az valyuta çıxışı, ixrac olunarsa, ölkəyə valyuta gəlişi, nəhayət daha güclü iqtisadiyyat və rifah deməkdir".

**Ekspertin fikrincə, bu işdə medianın üzərinə böyük məsuliyyət düşür:** “Reytinq, ucuz şou və qalmaqallı məişət məsələləri, kriminal hadisələr üzərində də qazanmaq olar. Amma iqtisadiyyatımızı, gələcəyimizi ucuz ambisiya və reytinqə alət etməyək! Tanıdığım, dəyər verdiyim və hörmət etdiyim, sosial şəbəkə və həyatda dostluq etdiyim media təmsilçilərimiz iqtisadiyyatın hər birimizin düşündüyündən qat-qat ciddi və dərin məsələ, elm olduğunu gözəl bilirlər. Problem bunu bilməyənlərlə bağlıdır. Bunu bilməmək isə acı rişxənd və ironiya doğurur. Seçim özümüzdədir. Bu gün bəh-bəhlə 5-10 manata aldığımız idxal məhsullarını bir neçə il sonra hətta 15-20 manata tapmaqda çətinlik çəkə bilərik. Çünki ərzaq məsələsində hər hansı istehsalçı ölkə hər hansı risk gördüyündə ixraca limit qoyur. Bu isə vaxtında yerli istehsalı düşünməyib, bəyənməyib, yerli istehsalı təbliğ edənlərə rişxənd edən, idxala arxayın olan, ucuz variantlarla idxalı dəstəkləyənləri alqışlayan bir cəmiyyət üçün çox baha başa gəlir”.

❑ Dünya SAKİT
Musavat.com




## Aİ Rusiyaya qarşı sanksiyaları uzadıb

**Avropa İttifaqında üzv ölkələrin xarici işlər nazirləri Rusiyaya qarşı sanksiyaların müddətini uzadıb. APA-nın xəbərinə görə, bu barədə Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallas X hesabında yazıb.**

“Avropa qərar verdi: Avropa İttifaqının xarici işlər nazirləri elə indicə Rusiyaya qarşı sanksiyaların müddətinin uzadılmasına qərar verib. Bu, Moskvanı apardığı müharibəni maliyyələşdirmək üçün gəlir əldə etməkdən məhrum edəcək. Rusiya vurduğu ziyanın hesabını verməlidir”.

# Paşinyanın "Nürnberq" xofu - Bakıdan şillə kimi cavab

## Erməni baş nazir çərənləyib ki, guya Araik Gəncənin vurulması ilə bağlı məhkəmədə etirafını narkotik təsiri altında edib; XİN İrəvanın layiqli cavabını verdi - görəsən, regional gərginliyi artıran kimdir?

**Separatçıların Bakıda başlanan məhkəməsinin Ermənistanın siyasi çevrələrində, hakimiyyətində çaxnaşma yaradacağı barədə öncədən yazmışdıq. Məlumdur ki, hərbi cinayətlərdə ittiham olunan Araik Arutyunyan məhkəmədə öz təşəbbüsü ilə söz alaraq, Gəncənin gecə vaxtı, insanlar yatdığı halda və deməli, daha çox mülki əhalinin qətli üçün raketlərlə vurulması haqqında qərarı onun vermədiyini bildirib.**



Onun bu sözləri baş nazir Nikol Paşinyanı əməlli-başlı qorxuya salıb. Məntiqlidir, çünki o vaxt işğalçı ölkənin ali baş komandanı Paşinyan olub. İndi də özüdür. 10 noyabr kapitulyasiya sənədinə Ermənistan adından imza atan da odur - Paşinyan. Ötən həftə Ermənistanın İctimai Televiziyasına müsahibəsində bu haqda danışan Paşinyan tipik erməni həyasızlığı ilə iddia edib ki, guya Araikin belə söz deməsinə səbəb ona qanunsuz psixotrop dərmanın təsiri altında olması ilə bağlı olub: "Regional gərginliyi qızışdırmağa yönəlmiş ifadələr almaq üçün bu insanlara qarşı psixikaya təsir edən, qadağan olunmuş narkotiklərdən istifadə olunur və həmin məhkəmə Ermənistana (oxu; Paşinyana - red.) qarşı istifadə ediləcək".

Qeyd edək ki, Araik Arutyunyan Gəncəni vurmaq qərarını vermədiyini, bu qərarı verməyə səlahiyyətinin çatmadığını məhkəmədə etiraf edib. O, 44 günlük müharibə zamanı Gəncənin vurulmasını özünün əmr etdiyi barədə yaydığı videonu yada salaraq, bu videonun çəkilmə səbəbi haqda istintaqa ifadəsində danışdığını bildirib. Eyni zamanda bu hadisəyə görə Azərbaycan xalqından üzr istəyib. Artıq Azərbaycan XİN erməni baş nazirin axmaq iddiasına cavab verib. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə guya regional eskalasiyaya rəvac vermək məqsədilə separatçı rejimin nümayəndələrinə qarşı psixotrop maddələrin tətbiq olunması ilə bağlı səsləndirilən iddiaları əsassız və gülünc adlandırıb. "Təqsirləndirilən şəxslərin bütün hüquq və vəzifələri lazımi qaydada təmin olunub və izah edilib, bütün məhkəmə prosesi və ifadələri qeydə alınıb. Azərbaycanda məhbuslara qarşı qəddar rəftarla bağlı iddialar müstəqil şəkildə, o cümlədən Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən araşdırılıb və bu iddiaların yalan olduğu təsbit edilib. Ermənistan tərəfindən belə bir bəyanatın verilməsinin, bu ölkənin siyasi rəhbərliyinin bir zamanlar Azərbaycana qarşı təcavüz aktı və siyasətini davam etdirmək naminə bütün vasitələrlə açıq şəkildə dəstəklədikləri şəxslərin hazırda müharibə cinayətləri törətməkdə ittiham olunması ilə əlaqədar davam edən məhkəmə prosesi ilə bağlı nə qədər əsəbi olduğunu nümayiş etdirdiyi aydındır. Üzdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını iddia edən Ermənistanın baş nazirinin ölkəmizin ərazilərində saxladığı qondarma rejimi təbliğ etdiyini və 2 sentyabr 2023-cü il tarixində, nümayəndələrinin Azərbaycan tərəfindən məsuliyyətə cəlb edilməsindən bir neçə həftə əvvəl, separatçı xunta rejimini qondarma "müstəqillik" münasibətilə təbrik etdiyini heç kim unutmayıb", - Hacızadə qeyd edib. Bəs Paşinyan niyə narahatdır və Bakıya niyə bu cür böhtan atır? Hətta şantaj edir bizi: guya məhkəmə regional gərginliyi artıra bilər. Görəsən, regional gərginliyi artıran tərəf kimdir?

Bölgəyə avropalı "casus"ları cəlb edən, Zəngəzur dəhlizinin açılmasını yubadan, amerikalı hərbçiləri sərhədə dəvət edən, Fransadan, Hindistandan silahlanan ölkə regional gərginliyi artırır, yoxsa dinc həyata, dayanıqlı sülhə, iqtisadi blokadadan çıxışa çağırış edən Azərbaycan? Görünür, Paşinyan Gəncənin vurulması ilə bağlı Araikin etirafından təşvişə düşüb. Bu terrorda Ermənistanın siyasi-hərbi rəhbərliyinin məsuliyyəti heç də az deyil. Ona görə də Paşinyan olduqca bəsit və cəfəng "bəhanə" tapıb - guya Araik narkotikin təsiri altında olub.

**Azad Vətən Partiyasının sədri Akif Nağı "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, Paşinyanın təlaşlanması təbiidir:** "Onlar Araik və digərlərinə kömək edə bilməyiblər. Bu cinayətkarlar isə istintaq dövründə bir sıra məsələləri açıqlayıblar, məhkəmədə də etiraflar etməkdədirlər. Sadəcə, Ermənistan indidən uydurmalar irəli sürür və özünü həmin situasiyaya hazırlayır. Əslində Paşinyan qorxur ki, Araik onun adını çəkəcək. Bu, zəncirvari prosesdir və məhkəmə prosesləri getdikcə daha böyük həqiqətlər üzə çıxacaq". **A.Nağı bildirdi ki, Azərbaycan Baş Prokurorluğu Ermənistanı əməkdaşlığa dəvət etdi, amma İrəvan buna reaksiya vermədi:** "Əvəzində, Paşinyan məntiqsiz açıqlamalar verməkdədir. Bu da özünüqoruma instinktidir. Hərbi canilərin mühakiməsinin regionda gərginliyin artması ilə əlaqəsi yoxdur. Onlar hərbi canilərdir və məhkəmə istintaqı davam edir. Bu məsələni siyasiləşdirmək, guya regionda hər şey qaydasında imiş, amma bu məhkəmə prosesi onu pozur demək, bunlar cəfəngiyyatdır. Belə məlum olur ki, Ermənistan sərhəddə təxribata hazırlaşır, indidən zəmin hazırlayır, adını da "regionda gərginliyi artıran məhkəmə işi" qoyur".

**Milli Cəbhə Partiyasının sədr müavini Ehtiram Mehdiyev isə vurğuladı ki, Paşinyan qorxur:** "Bunun səbəbi sadədir - Araik əmrin Ermənistanın baş nazirindən gəldiyini açıqlaya bilər. Çünki bu əmri vermək səlahiyyəti olmadığını deyib. O zaman bu hüququ ona verən Paşinyan və ölkənin müdafiə naziri olub. Əgər bu fakt açıqlansa, Qərb dairələrində məsələ qaldırmalıyıq. Paşinyanın terrorçu və hərbi cani mahiyyətini ifşa etməliyik. Əlbəttə ki, Gəncənin, Bərdənin bombalanmasının məsuliyyətini təkcə qondarma rejimin rəhbərləri daşımır, onlarla birlikdə bütün cinayətlərə görə Ermənistanın siyasi-hərbi rəhbərliyi də cavabdehdir. Ona görə də Nikol həyəcanlanıb ki, birdən adı çəkilər və özünü "demokrat" kimi sırıyan bir baş nazir hamının gözündə müharibə canisinə çevrilər". **E.Mehdiyev regionda gərginliyi Brüssel-Vaşinqton-İrəvan triosunun yaratdığını açıqladı:** "Cənubi Qafqaza müdaxilələr kövrək sabitliyi pozmağa səbəb ola bilər. Bakıda mühakimə edilənlərin isə regiondakı proseslərə aidiyyəti yoxdur. Paşinyan yenə də spekulyasiya etməyə çalışıb".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

## Ermənistanın himni dəyişdirilir

**Baş nazir Nikol Paşinyan Ermənistanın himninin mətnində dəyişikliklərdən danışıb. "Yeni Müsavat" xəbər verir ki, bu barədə Paşinyan sosial şəbəkələrdəki səhifələrində paylaşım edib. O, himnin necə və niyə dəyişdiyini izah edən video yayımlayıb. Baş nazirin sözlərinə görə, parlament layihəni birinci oxunuşda qəbul edib. İkinci oxunuşdan sonra yeni himn qəbul ediləcək.**

## "Hayakve" Azərbaycanda "faşizm" axtarır

**Ermənistanda bir xeyli əvvəl yaradılmış və Qarabağ məsələsi ilə məşğul olacağını bəyan edib "Hayakve" hərəkatı radikal yön tutacağını açıqlayıb. Tribunainfo.az xəbər verir ki, hərəkat bununla əlaqədar bəyanat da yayıb. Bəyanatda iddia olunur ki, Ermənistandakı kimi guya Azərbaycanda da "faşizm" var və hərəkat bu yöndə ciddi addımlar atacaq.**

""Biz həm Azərbaycan, həm də erməni faşizmini məhv edəcəyik". "Hayakve"nin Ermənistanda faşizmin olmasını təsdiqləməsi başadüşüləndir. Çünki uzun illərdir Azərbaycan bundan əziyyət çəkib. Lakin Azərbaycanda "faşizm"in olmasını iddia etmək axmaqlığın əlamətidir.



## "Bu, Ermənistanın məzar daşı olacaq" - Baqrat

**"Bu sərhəd xətti birbaşa ölkəmiz üçün böyük məzar daşına çevriləcək". "Yeni Müsavat" xəbər verir ki, bu sözləri erməni müxalifətinin lideri keşiş Baqrat deyib. O iddia edib ki, demarkasiya prosesi Ermənistanı guya yaşamaq və mövcud olmaq hüququndan məhrum edəcək. Keşiş Baqrat onu da deyib ki, Ermənistan əvvəlki statusuna qayıtmalı, Azərbaycanın tələblərini yerinə yetirməməli, demarkasiya prosesində üstün tərəf kimi çıxış etməlidir.**

❑ **Xəbərləri hazırladı: EMİL**

YENİ MÜSAVAT
N 15 (8625) 28 yanvar 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

# "Gürcüstanla əlaqələr dövrün tələblərinə uyğun şəkildə inkişaf etməkdədir"

## **Politoloq:** "İki ölkə arasındakı strateji tərəfdaşlıq regionda sabitlik və təhlükəsizliyin təmin olunmasında rol oynayır"

**Başa çatmaqda olan yanvar ayı Gürcüstan baş naziri İrakli Kobaxidzenin Bakıya rəsmi səfəri ilə də yadda qaldı. Baş nazir İrakli Kobaxidze Gürcüstanda keçirilən parlament seçkilərindən sonra ilk xarici səfərini, həmçinin 2025-ci ildə ilk rəsmi səfərini Azərbaycana etdi. Səfər zamanı Azərbaycanla Gürcüstan arasında ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində müzakirələr aparıldı.**

Prezident İlham Əliyevin və Gürcüstanın baş naziri İrakli Kobaxidzenin görüşdən sonra mətbuata verdikləri bəyanatlar səfərin Azərbaycanla Gürcüstan arasındakı ikitərəfli əlaqələrin möhkəmləndirilməsi və regionda əməkdaşlıq məsələlərini əhatə etdiyini göstərmiş oldu. Prezident İlham Əliyev çıxışında Gürcüstanın Azərbaycan üçün strateji tərəfdaş olduğu və iki ölkə arasında dostluq münasibətlərinin davam etdirilməsi ilə bağlı fikirlər səsləndirib.

Prezident İlham Əliyevin Gürcüstanın baş naziri ilə apardığı görüş və mətbuata verdiyi bəyanat, iki ölkə arasındakı əlaqələrin möhkəmliyini və tərəfdaşlıq ruhunu bir daha təsdiqləyir. Bu cür görüşlər, həm regional, həm də beynəlxalq miqyasda əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

Bəyanatda həmçinin Azərbaycanın Gürcüstanla birgə layihələrdə və regional təşəbbüslərdə daha yaxından əməkdaşlıq etməyə hazır olduğu ifadə edilib. Gürcüstan baş nazirinin səfəri Bakı səfəri iki dövlətin birgə həyata keçirdiyi layihələrin yalnız bu gün deyil, gələcək nəsillər üçün də dayanıqlı inkişaf platforması yaradacağını bir daha təsdiqlədi.

Ekspertlər hesab edir ki, energetika sahəsində iki ölkə arasındakı əməkdaşlıq həm ölkələrimiz üçün, həm daha böyük, geniş coğrafiya üçün xüsusi əhəmiyyət daşıyır. Birgə həyata keçirdiyimiz neft-qaz layihələri bu gün bir çox ölkələrin enerji təhlükəsizliyinin əsasını təşkil edir. Təkcə onu demək kifayətdir ki, Gürcüstan tranziti vasitəsilə Azərbaycan hazırda 11 ölkəyə öz təbii qazını ixrac edir, ildən-ilə ixrac artır. Keçən il bu, 25 milyard kubmetrə çatıb və bunun 10 faizi-ümumi ixracımızın 10 faizi Gürcüstanın payına düşür. Gürcüstanın istehlak etdiyi təbii qazın 80 faizdən çoxu Azərbaycan mənşəlidir. Yəni bu, doğrudan da çox böyük, xüsusi əhəmiyyətə malik olan layihədir və getdikcə bizim qaz ixrac coğrafiyamız genişlənəcək. Bu coğrafiyada Gürcüstan şübhəsiz ki, yenə həmişəki öncül yerini saxlayacaq.



İqtisadçı ekspertlər də hesab edir ki, Azərbaycan və Gürcüstan arasında iqtisadi əlaqələrin daha da dərinləşdirilməsi, xüsusən nəqliyyat və ticarət sahələrində yeni layihələrin həyata keçirilməsi istiqamətində müsbət inkişaflar gözlənilir. Bu layihələr yalnız iki ölkə arasında deyil, həm də regionda mövcud olan digər tərəfdaşlar üçün də faydalı olacaq. Azərbaycanla Gürcüstan arasında münasibətlər bundan sonra daha da inkişaf edəcək.

**Politoloq Məhəmməd Əsədullazadə "Yeni Müsavat"a bildirib ki, Azərbaycan və Gürcüstanın əsrlər boyu davam edən dostluq və mehriban qonşuluq əlaqələri bu gün də müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etməkdədir**: "Prezident İlham Əliyevin Gürcüstanın baş nazirinin qısa zaman ərzində Azərbaycana üçüncü dəfə səfər etməsini iki ölkə arasında əlaqələrin dərinliyinin və strateji xarakterinin göstəricisi kimi dəyərləndirməsi əlaqələrimizin hansı səviyyədə olduğunun ən yaxşı formada ifadəsidir. Baş nazir İrakli Kobaxidze Gürcüstanda keçirilən parlament seçkilərindən sonra ilk xarici səfərini Azərbaycana edərək, iki dövlət arasındakı regional əməkdaşlığa və strateji tərəfdaşlığa verilən yüksək önəmi nümayiş etdirdi.

Gürcüstan-Azərbaycan münasibətləri qarşılıqlı hörmət və ehtiram, sağlam və qarşılıqlı səmimiyyət çərçivəsində, bir-birinin ərazi bütövlüyünü tanımaq, beynəlxalq tədbirlərdə dəstəkləmək səviyyəsində qurulub. Müstəqilliymizin ilk illərindən hər iki ölkə xalqlarının ümumi problemlərin həllində qarşılıqlı dəstək göstərmək istəyi indiki uğurlarımıza vəsilə olub. Azərbaycan dost Gürcüstana qarşı kənar qüvvələrin, regiondan kənar güclərin müdaxiləsi zamanı onu qoruyan qardaş ölkə kimi çıxış edib və gürcü xalqı bunu heç vaxt unutmur. Gürcüstan Azərbaycanın karbohidrogen ehtiyatlarının Avropaya daşınmasında tranzit ölkə olaraq etibarlı tərəfdaş rolunu uğurla yerinə yetirib".

**Politoloq qeyd etdi ki, Azərbaycan və Gürcüstan arasındakı strateji tərəfdaşlıq regionda sabitlik, inkişaf və təhlükəsizliyin təmin olunmasında həlledici rol oynayır. İki dövlət arasında siyasi, iqtisadi, enerji və nəqliyyat sahələrində əməkdaşlıq uğurla davam edir. Bu əlaqələr həm regional, həm də qlobal səviyyədə tərəflərin maraqlarına uyğun olaraq qarşılıqlı fayda prinsipi üzərində qurulub:** "Azərbaycan Gürcüstan iqtisadiyyatına indiyədək 3,6 milyard ABŞ dolları həcmində sərmayə yatırıb. Bu, iki dövlət arasındakı iqtisadi əlaqələrin nə qədər dərin olduğunu göstərir. Azərbaycan və Gürcüstanın strateji mövqeyi Avropa ilə Asiya arasında körpü rolunu oynamağa imkan verir. Bu istiqamətdə həyata keçirilən layihələr yalnız region ölkələrinin deyil, həm də qonşu ölkələrin iqtisadi əlaqələrinin güclənməsinə xidmət edir. Gürcüstan və Azərbaycanın nəqliyyat infrastrukturlarını paralel şəkildə inkişaf etdirməsi və rəqəmsal texnologiyaların tətbiqi bu sahədə daha səmərəli nəticələr əldə etməyə imkan verir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Etibar SEYİDAĞA

# "Formula 1"də "itən" 1,4 milyonun sənədi Gürcüstan bankında aşkarlandı

## 722 min manat niyə Çingiz Mehdiyevin Amerikada yaşayan qardaşının adına köçürülüb?



**Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Leyla Məmmədova-Əsgərovanın sədrliyi ilə Çingiz Mehdiyevin cinayət işi üzrə məhkəmə prosesi davam edir. Musavat.com xəbər verir ki, Çingiz Mehdiyev "Formula 1" yarışlarının təşkili zamanı 400 min manata yaxın yeyintidə təqsirləndirilir.**

O, Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin (BCCOC) keçmiş şöbə müdiri olub. Əməliyyat Şirkətinin icraçı direktoru mərhum nazir Azad Rəhimovun oğlu Arif Rəhimov olub. Çingiz Mehdiyev isə onun sağ əli olub.

Çingiz Mehdiyev ittiham üzrə özünü təqsirli bilmir. Çingiz Mehdiyevin vəkili vəsatətlə çıxış edib. Vəkil bildirib ki, 1 milyon 400 min pulun köçürülməsi leqal olub.

Gürcüstanda olan ofisdən bəzi maliyyə sənədlərini əldə etdiklərini vurğulayan vəkil deyib ki, Gürcüstan bankından köçürülən maliyyə sənədləri var. Vəkil qeyd edib ki, Çingiz Mehdiyevin anasının adına olan bank hesabları vərəsənin hesabına köçürülüb. Vəkil həmin sənədlərin işə əlavə olunmasını istəyib. Çingiz Mehdiyev bildirib ki, anasının şəxsi hesabı Gürcüstan bankında olub.

Onun sözlərinə görə, anası rəhmətə getdiyi üçün vəsaitlər şəxsi hesabda qalıb: "1 ildən sonra vərəsəlik sənədləri təqdim olunandan sonra pullar vərəsənin hesabına köçürülüb. Burada qeyri-qanuni heç bir şey yoxdur. Vərəsə pulların hamısı mənim adıma gəlib. Çünki qardaşım Amerikada yaşayırdı, onun adına köçürülə bilməzdi. Mən də pulları qardaşımın hesabına köçürdüm".

Hakim sual edib ki, nəyə görə Çingiz Mehdiyevin adına olan vəsait Amerikada olan hesaba köçürülüb.

Təqsirləndirlilən şəxs isə bunun onun şəxsi işi olduğunu deyib.

Məlum olub ki, həmin hesabdan köçürülən pul 722 min manatdır. Həmin pul Çingiz Mehdiyevin Amerikada yaşayan qardaşı Zaur Mehdiyevin adına köçürülüb. Vəkil qeyd edib ki, bank hesabları vasitəsilə köçürülən pulların hamısı təyinatı üzrə köçürülüb. Onun sözlərinə görə, həmin pullar şəxsi hesabda olan pullar olub.

Təqsirləndirilən şəxsin vəkili qeyd edib ki, məhkəmə istintaqına güvənirlər. Onun sözlərinə görə, cinayət işinə xitam verilməsi üçün qanunda olan 4 əsasın hamısı var. Vəkil həmçinin Gürcüstan bankına sorğu göndərilməsini, sənədlərin əslinin əldə edilməsini istəyib.

Dövlət ittihamçısı Orxan Səmədov bildirib ki, müdafiə tərəfi pulların köçürülməsini vərəsəlik aktı ilə mübahisələndirir. Onun sözlərinə görə, burada rəsmi sənəd yoxdur. Məhkəmə birinci vəsatəti təmin etməyib.

Məbləğlərin dəqiqləşdirilməsinə görə Gürcüstan bankına müraciət edilməsi üçün verilən vəsatətlə bağlı bildirilib ki, bu məsələ müşavirə otağında nəzərə alınacaq. Daha sonra Çingiz Mehdiyevin vəkilləri mütəxəssis rəyləri ilə bağlı vəsatət verib. Vəkil deyib ki, 621 min manat mallar ölkəyə gətirilib. Onun sözlərinə görə, malların dəyəri gömrükdə düzgün hesablanmayıb. Bildirib ki, mütəxəssis malların dəyərləndirilməsinə ittihamedici qiymət verib.

Vəkil mütəxəssisin sənədləri tədqiq etmək üçün məhkəməyə dəvət olunmasını istəyib. Dövlət ittihamçısı bildirib ki, işdə olan sənədlərə mütəxəssis rəyləri təqdim olunub. O, vəsatətin təmin olunmamasını istəyib. Vəsatət təmin olunmayıb. Daha sonra vəkillər Hesablama Palatasının şirkətdə apardığı audit yoxlamaları nəticəsində tərtib olunan aktın alınması barədə vəsatət veriblər. Bu vəsatət də təmin olunmayıb.

İttihama görə, Çingiz Mehdiyev İdman Nazirliyi vasitəsilə Bakı Şəhər Halqası Əməliyyat Şirkətinə ayrılmış 397 min 852 manat 82 qəpik vəsaiti mənimsəyib. Bundan başqa, Çingiz Mehdiyev ona etibar edilmiş vəsaiti hissə-hissə olmaqla 2020-ci ilin fevral-noyabr aylarında qardaşı Zaur Mehdiyevin ABŞ-ın "Bank of Amerika" bankındakı hesabına 1 milyon 436 min 735 manat 18 qəpik köçürməklə leqallaşdırıb.

Qeyd edək ki, 2016-2018-ci illərdə "Formula 1" yarışlarının təşkilində 397 min manatdan artıq vəsaitin yeyintisindən bəhs olunur. Yarışların təşkilində müxtəlif avadanlıqların, geyimlərin qiymətləri artıq göstərilib və nəticədə lazım olduğundan daha çox vəsait ayrılıb. Çingiz Mehdiyev bu üsulla vəsaitləri ələ keçirməkdə təqsirləndirilir.

Ona həm də cinayət yolu ilə əldə olunmuş vəsaitlərin mənimsənilməsi ittihamı verilib. Keçmiş şöbə müdiri həmin vəsaitləri Seyşel adalarında anası Leyla Əliyevanın adına açdığı şirkətin və ailə sürücüsü Mais Abdullayevin hesablarına köçürüb. İttihama görə, yarışların təşkili üçün avadanlıqların alınması, xidmətlərin göstərilməsi adı ilə anasının şirkəti, sürücüsü ilə müqavilələr bağlanıb.

Proses fevralın 3-də davam etdiriləcək.

❑ **Elşən MƏMMƏDƏLİYEV, Musavat.com**

YENİ MÜSAVAT
N 15 (8625) 28 yanvar 2025

# İrandan mühüm hicab açıqlaması - rejim yumşalır, yoxsa...

## Siyasi şərhçi: "Bu məsələ artıq Tehranın başağrısına çevrilib"

**"İran hökuməti ictimai yerlərdə saçlarını örtməyən qadınlara təzyiq etməmək qərarına gəlib. Bu qərar düzgün istiqamətdə atılan addımdır".**

Bunu İranın strateji məsələlər üzrə vitse-prezidenti Məhəmməd Cavad Zərif Davosda keçirilən Dünya İqtisadi Forumunda CNN-in müxbiri Fareed Zakaria ilə danışarkən deyib.

"Tehran küçələrinə çıxsanız, qadınların saçlarını örtmədiyini görərsiniz. Bu, qeyri-qanunidir, lakin hökumət qadınlara təzyiq etməmək qərarına gəlib", - deyə o bildirib.

Vitse-prezidentin sözlərinə görə, bu qərar dövlət başçısı Məsud Pezeşkianın seçkiqabağı vədi olub və indi yerinə yetirilib. Zərif qeyd edib ki, ölkə prezidenti ictimai yerlərdə saçlarını örtməkdən imtina edən qadınları cəzalandıran qanunu tətbiq etməmək qərarına gəlib. Onun sözlərinə görə, bu qərar İran rəhbərliyinin, o cümlədən parlamentin spikeri, məhkəmə hakimiyyəti, Milli Təhlükəsizlik Şurası və hökumət başçısının ortaq razılığı ilə qəbul edilib.

Zərif həmçinin bildirib ki, qadınları təzyiqə məruz qoymaqdan qaçmaq cəhdləri "yetərli deyil", lakin "doğru istiqamətdə atılmış addımdır".

Aydındır ki, ölkənin dini lideri Əli Xomeneinin izni olmadan buna getmək mümkünsüzdür. O zaman vitse-prezidentin açıqlaması nədən xəbər verir? Bu, İrandakı rejimin yumşalmasının anonsudur, yoxsa ABŞ-la,



Qərblə qarşıdakı danışıqlarda növbəti taktiki gediş?

**Orta Doğu Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Sədrəddin Soltan** "Yeni Müsavat" qəzetinə açıqlamasında bildirib ki, hicabdan istifadə İran rejiminin ən vacib əməllərindən sayılır: "1979-cu il inqilabı başlayandan sonra bir ildən çox müddətdə İranda hicaba görə qadınlarla mübarizə aparıldı. Hicab taxmayan çoxlu sayda qadın öldürüldü və həbs edildi. Odur ki, hicab Tehran hakimiyyətinin dini, siyasi və ideoloji məsələsidir. Hakimiyyət bunu o dərəcədə radikallaşdırdı ki, sonda ağır nəticələrlə üz-üzə qaldı. Məsələn, 2022-ci ildə Məhsa Əmininin öldürülməsi ilə etiraz aksiyası başladı və proseslər fərqli istiqamətə yönəldi.

Zərif doğru deyir, Pezeşkian seçki öncəsi hicab məsələsində zorakılığa qarşı olacağını bəyan etmişdi. Ötən ay İran parlamenti iffət haqqında qanunu müzakirəyə çıxardı. Qanuna əsasən hicab bağlamayan qadınlar çox böyük məbləğdə cərimə olunmalı və yaxud azadlıqdan məhrum edilməli idi. Pezeşkian hökuməti həmin qanunun təsdiq olunmaması üçün parlamentə müraciət etdi. Nəticədə qanun yumşaldılması və dəyişikliklər edilməsi üçün yenidən işlənməyə göndərildi. Cavad CNN-in müxbirinə müsahibəsində bu məsələni önə çəkib. İranın ayrı-ayrı üləmaları, seyidləri də bildirib ki, hicabla bağlı zorakılıq cəmiyyəti İslamdan uzaqlaşdırır.

Hazırda İranda Məhəmməd Cavad Zərifə söylədiyi fikirlərə görə təzyiqlər başlayıb, onun istefası tələb olunur. Deyilir ki, Zərif bu çıxışı ilə İranda qadınların çılpaq olmasını təbliğ edir. Ona qarşı aparılan kampaniyanın arxasında dayananlardan biri SEPAH-ın təbliğat maşınıdır. Onlara başçılıq edənlərdən biri də deputat Qəzənfəridir. Cavadı SAVAK-ın agenti hesab edirlər. SAVAK şahın dövründə təhlükəsizlik orqanı olub. Onlar iddia edir ki, Zərif SAVAK-ın təhriki ilə ABŞ-da təhsil almağa gedib və şahçıdır. SEPAH və mühafizəkar xəttin nümayəndələri bu yolla Zərif və Pezeşkiana qarşı qara kampaniya aparırlar".

**Millət vəkili Ceyhun Məmmədov bildirib ki, İranda dövlət şəriət qanun və normaları ilə idarə olunur. Bu ölkədə hakimiyyətin əsas qolu ali dini lider və onun administrasiyasıdır:** "İran üçün hicab çox önəmli məsələdir, hakimiyyət heç zaman bu məsələdə güzəştə getmək istəmir. Hicab taxılmaması dövlət üçün təhlükə hesab olunur. İran hazırda ən çox məcburi hicaba görə tənqid olunur. Bu, artıq İranın başağrısına çevrilib.

Ölkənin hazırkı vəziyyəti çox ağırdır. Yaxın Şərqdə mövqelərini itirib, digər tərəfdən Donald Trampın sanksiyalarına məruz qala bilər. Yaxın aylarda İran üçün çox çətin günlər olacaq. Ölkənin daxilində də ciddi gərginliklər var. Hazırda İranın olduğu durum tələb edir ki, hakimiyyətdə mühafizəkarlar olmasın. Bununla da İran göstərməyə çalışır ki, ölkədə yumşalma var, müəyyən addımlar atılır.

Lakin bunu da unutmayaq ki, İran üçün hicab artıq dövlət rəmzinə çevrilib. Onlar bunu özlərinin qırmızı xətləri hesab edirlər. Bütün bunlar nəzərə alınaraq açıqlamalar verilir, amma hicabla bağlı tam güzəşt yoxdur. Yumşalma isə o deməkdir ki, İran taktiki gediş edir və təzyiqlərdən özünü qoruyur".

❑ **Şahanə RƏHİMLİ, Musavat.com**

# Kiyev üçün 4 ssenari - 4-ü birinə dəyməz, əgər...

## Ekspert: "Ukrayna hər bir halda itirən tərəfdir, çünki..."

**ABŞ prezidenti Donald Trampın Rusiya-Ukrayna müharibəsini dayandırmaq niyyətini bəyan etməsindən sonra "The Times" münaqişənin sona çatması ilə bağlı dörd "realist" ssenarini təqdim edib.**



**1-ci ssenari** Ukraynanın dəstəksiz qalmasıdır: əgər Rusiya danışıqlara getməzsə və ABŞ Ukraynaya dəstəyi dayandırarsa, Kiyev zəifləyərək məğlubiyyətə uğrayacaq. Lakin "The Times" qeyd edir ki, Tramp belə nəticədən qaçmağa çalışacaq.

**2-ci ssenari:** "Pis sülh". Bu halda Ukrayna məğlubiyyətə uğrayar və bölünər. Sülh olsa da, bu, ölkənin parçalanması deməkdir.

**3-cü ssenari:** Atəşkəs və dondurulmuş münaqişə. Atəşkəs yalnız münaqişənin tam həlli ilə nəticələnərsə, Ukraynanın "sağ qalmasına" imkan yarada bilər. Bu, bölgədə sabitlik yaradıb Ukraynanın müəyyən təhlükəsizlik və iqtisadi təminatlar əldə etməsinə şərait yaradar. Lakin müharibənin sadəcə dondurulması Moskvanın istədiyi vaxt hərbi əməliyyatları yenidən başlatmasına imkan verə bilər. Qeyd edilir ki, ABŞ-ın yeni dövlət katibi Marko Rubio uzunmüddətli razılaşmanı dəstəkləyir.

**4-cü ssenari:** danışıqlar yolu ilə həll. Vaşinqton Kiyevə "güclü mövqe"dən sülh danışıqları aparmaq imkanı yaratmalı və təhlükəsizlik zəmanətlərini təmin etməlidir. Əgər Rusiya bu danışıqlardan yayınarsa və ya qeyri-səmimi iştirak edərsə, sanksiyalar tətbiq edilə bilər. Tramp Ukraynanı silah və maliyyə dəstəyi ilə təmin etmək öhdəliyini götürməlidir. Lakin bu variantda belə, Rusiyanın işğal etdiyi ərazilərin geri qaytarılması ehtimalı azdır.

Naşr vurğulayır ki, Ukraynanın qələbəsini və ya məğlubiyyətini nə torpaq məsələləri, nə də sərhəd xətləri müəyyən edəcək. Əsas məsələ münaqişədən sonra ölkənin hansı təsir dairəsində olacağıdır.

Sadalanan variantlardan hansı biri və nə vaxt reallaşa bilər. Və həmin variant tərəflərdən hansı birinin strateji məğlubiyyəti anlamına gələcək?

**Hərbi ekspert Rövşən Məhərrəmov "Yeni Müsavat"a bildirib ki, Rusiya-Ukrayna müharibəsi başlayan gündən müharibənin sonluğu ilə bağlı müxtəlif proqnozlar verilib:** "Bu proqnozların dördü də əslində müharibə başlayan gündən verilib və müzakirə olunub. Yəni Ukraynanın parçalanması və torpaq itkisi məsələsi ilk gündən proqnozlaşdırılırdı. Faktiki indiki mərhələdə reallıqdan çıxış etsək, müharibə hansı mərhələdə dayanır dayansın - sülh sazişinə getsinlər, atəşkəsə getsinlər, münaqişə dondurunsun, fərq etməz, Ukrayna hər bir halda itirən tərəfdir. Çünki Rusiya tərəfi bütün sanksiyalara, təhdidlərə baxmayaraq, Donald Trampın sərt açıqlamalarına məhəl qoymadan hər gün bir-iki yaşayış məntəqəsini işğal etməkdə davam edir.

Təbii ki, Avropa Ukraynaya müəyyən mənada dəstək verməyə çalışır, amma bu dəstək nə qədər davamlı olacaq bəlli deyil. Əsas məsələ odur ki, ərt sanksiyaların tətbiqinin şahidiyik. Eyni zamanda sanksiyaların yarılmasına da şahidlik edirik.

Açığı, nə qədər çətin görünsə də, Rusiya tərəfi Qərb sanksiyalarını yarmağı bacarır. Bu işə bir neçə ölkəni də cəlb edə biliblər".

**Hərbi ekspert deyib ki, Qərb sanksiyaları effektiv olduğu halda Rusiyanı Ukraynada dayandırmaq mümkün olardı:** "Müharibə başlayana qədər Rusiyaya tətbiq olunan sanksiyaların azı 10 qat sərtləşdirilməsi və artırılması bu şəraitə uyğunlaşmasını diqtə edib. Rusiya belə şəraitdə yaşamağa artıq öyrəşib. Sanksiyalar Rusiyanı zəiflədir, amma burada ən çox itirən tərəflərdən biri təbii ki, Ukrayna ilə yanaşı Avropadır. Avropada artıq anlayırlar ki, münaqişənin davam etməsi həm də onların zərərinədir. Faktiki olaraq Rusiyanı dayandırmaq üçün heç bir addım ata bilmirlər, üstəlik, özləri də böyük ziyan çəkirlər".

**Hərbi ekspert deyib ki, ABŞ-ın yeni prezidenti Donald Trampın Rusiya prezidenti Vladimir Putinə 100 gün vaxt verməsi də Ukrayna üçün acınacaqlı nəticə vəd edir:** "Donald Trampın münaqişənin, müharibənin dərhal dayandırılması tələbini irəli sürməsi daha məntiqli olardı. Tutaq ki, Rusiya müharibəni dayandırdı, nə dəyişəcək? İşğal edilmiş Ukraynanın əraziləri geri qaytarılacaq? Əlbəttə ki, yox. Bundan başqa, Rusiya hər dəfə açıq şəkildə nüvə silahından, atom bombasından istifadə ediləcəyini gündəmə gətirir. Ona görə də indiki mərhələdə hansı variant olur-olsun Rusiya üstünlüyə malikdir".

**Hərbi ekspert deyir ki, Rusiyaya qarşı sanksiyaların uzun müddət davam edəcəyi də inandırıcı deyil:** "Rusiya kimi böyük bir ölkənin bitib-tükənməz təbii sərvətləri var. Dünyanı idarə edən böyük korporasiyalar zəngin bir ölkənin daimi olaraq sanksiyalar altında saxlanılmasında maraqlı deyil. Hər halda, görünən odur ki, Rusiya tərəfi irəliləyir. Ukraynanın ehtiyatda olan generalları açıq deyirlər ki, orduda panika yaranıb və vəziyyət o qədər də yaxşı deyil. Rusiya isə istədiyinə nail olana qədər davam etmək əzmi nümayiş etdirir. Ona görə də münaqişəni davam etdirəcək. Müharibənin yaxın aylarda dayanacağını güman etmirəm".

❑ **Elşən MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Bir qəzada 5 ölü - sovet maşınları nə vaxt yığışdırılacaq...

## Eldəniz Cəfərov: "Hazırkı vaxtda sovet maşınlarına qadağa qoyulması doğru olmazdı, çünki... "

**Yol qəzaları dəm qazı kimi can almağa davam edir. Yanvarın 24-də saat 23 radələrində Bakı-Qazax-Gürcüstan sərhəd yolunun Şəmkir rayonu ərazisindən keçən hissəsində yol-nəqliyyat hadisəsinin baş verməsi nəticəsində 5 insan həyatını itirib.**

Şəmkir rayon sakini, 26 yaşlı Xətai Əliyev Qazax rayonu istiqamətində hərəkətdə olarkən əks hərəkətdə qarşıdan gələn rayonun digər sakini, 41 yaşlı Zaur Cabbarovun idarə etdiyi "Niva" markalı avtomobillə toqquşub. Hadisə nəticəsində VAZ-2106-nın sürücü və həmin avtomobildə olan sərnişinlər Şəmkir rayon sakini 28 yaşlı Röyal Allahverdiyev, həmçinin "Niva" markalı avtomobilin sürücüsü və həmin avtomobilin sərnişini, Şəmkir rayon sakini 53 yaşlı Elşən Xudaverdiyev və hələlik kimliyi istintaqa məlum olmayan daha bir nəfər həyatını itirib.

VAZ 2106-da olan digər sərnişin 1996-cı il təvəllüdlü Elçin Orucov isə xəstəxanaya yerləşdirilib.

Şübhə yox ki, toqquşan sovet maşınları olmasaydı, itki daha az olardı. İnsan faktoru, qaydaları pozma faktları öz yerində, bəs konserv qutusu sayılan sovet maşınları yollardan nə vaxt yığışdırılacaq?

Mütəxəssislər də bildirir ki, sovet maşınlarının çoxu bu gün texniki baxımdan müasir avtomobillərlə müqayisədə təhlükəsizlik standartlarına uyğun deyil. Onların əksəriyyəti, xüsusilə "Jiquli", "Qaz-24", "Niva" kimi modellər, nə qəza zamanı zərbəni udmaq qabiliyyətinə, nə də müasir təhlükəsizlik sistemlərinə malikdir. Məsələn, çox nazik və köhnəlmiş metal konstruksiyalar qəza zamanı sərnişinləri qorumaq əvəzinə, daha böyük risk yaradır. Həmçinin bu avtomobillərdə hava yastıqları, ABS sistemi və digər müasir təhlükəsizlik texnologiyaları yoxdur. Yaşları 30-50 ildən çox olan bu avtomobillərdə texniki baxım düzgün aparılmadıqda, əyləc sistemləri və mühərriklər də nasaz olur.



Eləcə də VAZ 2106 sovet dövrünün ən populyar avtomobillərindən biri olub. Sadə quruluşu, ucuz ehtiyat hissələri və dözümlü mühərriki ilə bu model həm şəhər, həm də kənd yerlərində geniş istifadə edilib. Lakin bu avtomobilin texnoloji imkanları artıq müasir dövrün tələblərinə cavab vermir və təhlükəsizlik baxımından ciddi problemlər yaradır. Belə ki, VAZ 2106-da istifadə olunan nazik metal konstruksiya qəza zamanı sərnişinləri qorumaq üçün yetərli deyil. Avtomobilin karkası güclü zərbələrə davam gətirmir və qəzalarda ölüm riskini artırır.

Mütəxəssislər qeyd edir ki, hələ də bu cür maşınlardan istifadə edilməsinin səbəbləri aşağıdakılardır:

**1. Aşağı qiymət:** İkinci əl bazarında sovet maşınlarının qiyməti münasibdir, buna görə də maddi imkanı məhdud olanlar bu avtomobillərə üstünlük verir.

**2. Nostalji hissi:** Bir çox insan bu avtomobilləri sadəcə keçmişə olan bağlılıq səbəbindən saxlayır.

**3. Alternativlərin çatışmazlığı:** Bölgələrdə müasir avtomobillərə çıxış məhduddur.

**Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Zamanında bütün postsovet ölkələrində olduğu kimi, Azərbaycanda da əsasən sovet istehsallı avtomobillər populyar olub. Xarici avtomobillər çox nadir hallarda ölkəyə gətirilirdi. Daha sonrakı dövrdə bu avtomobillər Azərbaycanda Rusiya istehsallı avtomobillər kimi populyar idi. Əsasən bölgələrdə Yaponiya, ABŞ və Avropa istehsalı olan avtomobillərin rəsmi dilerləri və servis mərkəzləri olmadığına görə insanlar Rusiya istehsallı avtomobillərə üstünlük verirdilər, xüsusilə onların təmirinin asanlığı səbəbindən. Statistikaya baxanda da görürük ki, Rusiya istehsallı avtomobillər top 5-likdə idi. Yəni Rusiyanın avtomobil ixrac etdiyi ölkələr arasında Azərbaycan 5-ci yerdə idi və bu da əhəmiyyətli bir göstərici idi.

Daha sonrakı mərhələdə, Rusiya avtomobil sənayesi çökdükdən sonra onların yerini xarici istehsallı avtomobillər tutdu.

İndi isə birdən-birə Rusiya istehsallı və ya köhnə sovet avtomobillərindən imtina etmək mümkün deyil. Çünki bu avtomobillər bəziləri üçün qazanc mənbəyidir, digərləri üçün isə hərəkət etmək imkanı yaradır. Ona görə də düşünürəm ki, biz hazırkı vəziyyətdə, Azərbaycan avtomobil parkında bu avtomobillərin çoxluq təşkil etdiyi bir dövrdə, onların istismarını qadağan etməyimiz doğru olardı. İnsanlar nəqliyyat vasitəsiz qala bilər. Amma mərhələli şəkildə artıq görürük ki, ölkənin avtomobil parkı yenilənməyə doğru gedir. Əsasən də ekoloji təmiz nəqliyyat vasitələri ilə yenilənir, həmçinin yenilənmə ilə bağlı əlverişli şərtlər təqdim olunur və sair.

Həmçinin utilizasiya prosesi də başlayıb - köhnə maşınlardan azad olmaq üçün könüllü utilizasiya prosesi. Yəni sovet maşınlarının sıradan çıxması üçün bir qədər vaxt və mərhələ lazımdır. Bununla bağlı ən mühüm qərarlardan biri isə 2023-cü ilin mart ayında Nazirlər Kabinetinin qəbul etdiyi qərar oldu - avtomobil parkının köhnəlməsinin qarşısını almaq məqsədilə ölkəyə yaşı 10 ildən çox olan avtomobillərin idxalı məhdudlaşdırıldı. Bu proseslər yavaş-yavaş davam edir. Gedişatla, təbii yolla, avtomobil parkı yenilənəcək. Amma qeyd etdiyim kimi, hazırda bu qadağanın tətbiqi doğru olmazdı".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**



# Fəvvarələr meydanında qanunsuz obyekt tikilirmiş

**Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi Əhməd Cavad küçəsindəki (Fəvvarələr meydanı) qanunsuz tikilinin sökülməsinə və sakinlərin gediş-gəlişinə yaradılan maneənin aradan qaldırılmasına başlayıb.**

Musavat.com "APA-Economics"ə istinadla xəbər verir ki, ərazidə yerləşən "Fontana" restoranına bitişik sahədə əlavə artırma işlərinin aparılması ikinci belə haldır.

Ötən ilin mart ayında da Baş İdarə oxşar faktla bağlı qanunsuzluğun qarşısını alıb. Buna baxmayaraq, restoran sahibləri bu il ərazidə yenidən özbaşına tikinti-quraşdırma işləri aparıblar.

# Neftçalada ov qaydalarını pozanlar saxlanıldı

**Neftçala rayonu ərazisində ov qaydalarını pozan şəxslər saxlanılıb.**

Bu barədə Musavat.com-a Dövlət Ekoloji Təhlükəsizlik Xidmətindən məlumat verilib.

Araşdırma zamanı həmin şəxslərin Neftçala rayonu Dördlər kənd sakinləri Ağakişi Quliyev, Yusif Əliyev, Tatarməhlə kənd sakinləri Xəyal Vəliyev, Əfqan Həziyev, Vidadi İskəndərov, Abasallı kənd sakini Vasif Cəbrayılov və Bakı şəhər sakini Nazim Rzayev olduğu müəyyən edilib.



Onlardan ov silahları, qanunsuz ovlanmış bir baş çöl donuzu və çöl quşları aşkar edilərək götürülüb.

Faktla bağlı qanun pozucuları barəsində protokol tərtib edilib və qanunamüvafiq tədbir görülüb.

# Toy kimi dəbdəbəli yas mərasimlərimiz - israfdan niyə qaça bilmirik

## Deputat: "Ya insanlar özləri etməlidir, ya da inzibati yolla həll olunmalıdır"



**İsmayıllı rayonu və kəndlərində yas mərasimlərində cümə axşamlarının ləğv olunduğu haqda xəbər yayılıb. Lakin məsələ ilə bağlı Oxu.az-un İsmayıllı Rayon İcra Hakimiyyətinə (İH) göndərdiyi sorğuya cavab olaraq, İH-in İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlara işin təşkilatçısı Nəsimi Teymurov açıqlamasında bildirib ki, cümə axşamlarının ləğv olunması ilə bağlı söylənilənlər həqiqəti əks etdirmir.**

"İsmayıllı rayonunun ağsaqqalları, ziyalıları yas mərasimlərinin təşkili və keçirilməsi ilə bağlı icra hakimiyyətinə müraciət ediblər. Onların müraciətləri nəzərə alınaraq rayon sakinlərinə tövsiyələr verilib. Bu tövsiyələr yas mərasimlərinin şəriət qaydalarına uyğun olaraq sadə formada keçirilməsi ilə bağlıdır. Burada əsas məsələ imkanlı və imkansız ailələr arasında fərqin aradan qaldırılması, yas sahibi olan ailənin əlavə maddi yükdən azad edilməsidir. Əhaliyə yas mərasimlərində vahid tərzdə çadır qurulması, yas süfrəsində yalnız çayın verilməsi tövsiyə edilir. Bu tövsiyə dini dəyərlərə uyğun olaraq israfın qarşısını almağa, cəmiyyət arasında sosial həmrəyliyi artırmağa yönəlib və sosial ədalət prinsipi daşıyır. Məqsəd həmrəy olmaq, qarşılıqlı hörməti artırmaqdır. Bizim bu tövsiyə xarakterli istəyimizi insanlar rəğbətlə qarşılayır, yas mərasimlərini dini dəyərlərə uyğun keçirirlər".

Ancaq gerçək belədir ki, zaman-zaman edilən çağırışlara baxmayaraq, hələ də Azərbaycanın əksər bölgələrində, paytaxt Bakıda dəbdəbəli yas mərasimləri keçirilir. Halbuki nə qonşu Türkiyədə, nə də İranda belə ifrata və israfa rast gəlmək mümkünsüzdür. Allah isə ifrata varanları, israfçıları sevməz.

Bəs niyə toylardakı kimi, yaslarda da dəbdəbədən, ifratdan qaça bilmirik? Səbəb nədir? Mentalitet, yas biznesi, yoxsa nə? Bəlkə Naxçıvandakı kimi inzibati qadağa qoymağın vaxtı çatıb?

Yeri gəlmişkən, Füzuli rayonunda ictimaiyyətin, rayon ağsaqqallarının, din xadimlərinin, ziyalıların birgə təşəbbüsünə əsasən artıq 11 ilə yaxındır ki, yas mərasimləri israfçılıqdan, təmtəraqdan uzaq və sadə şəkildə təşkil olunur. Füzulidə ehsan süfrələri halva, xurma, limon, qənd, çay, su və yuxa olmaqla yeddi əsas predmetlə açılır. Füzuli Rayon İcra Hakimiyyətinin məlumatına görə, son 11 ildə yas yerlərinin tam sadələşdirilmiş formada təşkil olunması nəticəsində rayon əhalisi təxminən 19.1 milyona qədər vəsaitə qənaət edib. Əgər əvvəllər yas sahibi 3, 7, 40 və cümə axşamları üçün orta hesabla 10-15 min AZN xərcləməli olurdusa, hazırda sadələşdirilmiş ehsan məclislərinə dəfn xərcləri də daxil olmaqla, orta hesabla 3000 AZN-ə qədər vəsait tələb olunur. Rayon sakinləri qənaət etdikləri vəsaiti digər sosial problemlərinin həllinə sərf edirlər.

1 yanvar 2025-ci il tarixdən etibarən ziyalıların və Füzuli ictimaiyyətinin birgə təşəbbüsü, eləcə də səyyar qəbullarda səsləndirilən vətəndaş müraciətləri əsasında, cümə axşamları (bir cümə axşamı saxlanılmaqla) həyata keçirilmir. Rayon sakinləri bildirirlər ki, ehsan süfrələrinin sadə, təmtəraqdan uzaq keçirilməsi onlara maddi zərər vurmur, banklara, kredit təşkilatlarına borclu qalmalarına səbəb olmur. Rayonda ehsan məclislərindən toplanan vəsaitlə vətəndaşlar həm yas mərasimlərini təşkil edir, həm də mərhumun dəfn olunması, qəbirüstü abidəsinin düzəldilməsi və digər işləri yerinə yetirirlər.

Yada salaq ki, bənzər qərar Naxçıvanda da qəbul olunmuşdu. Naxçıvan MR Şərur rayonu Mahmudkəndin əhalisinin birgə qərarı ilə yas mərasimlərində ehsan verilməsi qadağan edilib.

İlahiyyatçılar yas məclislərinin dəbdəbəli keçirilməsinin İslam dəyərlərinə uyğun olmadığını vurğulayır. Qeyd edilir ki, yas məclislərinin əsas məqsədi mərhuma dua etmək, ailəsinin yanında olmaq və mənəvi dəstək göstərməkdir. Lakin hazırda yas məclislərinin dəbdəbəli şəkildə təşkili, böyük ziyafətlər verilməsi və həddindən artıq xərc çəkilməsi bu təməl məqsədləri kölgədə qoyur. **İslam dini israfçılığa qarşıdır və hər hansı mərasimin sadə şəkildə keçirilməsini tövsiyə edir. Quran və hədislərdə dəfələrlə israfın qadağan edildiyi vurğulanır:** "Həqiqətən, israf edənlər şeytanın qardaşlarıdır..." (Quran, İsra surəsi, 27-ci ayə). Peyğəmbər (s.ə.s.) hədislərində bildirilib ki, yas üç gündən artıq davam etməməlidir. Bu müddət kədərlə başsağlığı üçün kifayətdir. Daha uzun və israfçı mərasimlər dinin mahiyyətindən uzaqdır.

İlahiyyatçılar vurğulayır ki, mərhum üçün edilən dualar və onun ruhu üçün edilən yaxşılıqlar (sədəqə vermək, ehtiyacı olanlara yardım etmək) daha dəyərlidir. Yemək-içmək və böyük məclislərin təşkili mərhumun ruhuna heç bir fayda gətirmir. Yas məclislərində israfçılığın qarşısını almaq üçün din xadimlərinin cəmiyyəti bu mövzularda maarifləndirməsi vacibdir. İnsanlara bu mövzunun dini və iqtisadi tərəfləri izah edilməli, dinin həqiqi məzmunu çatdırılmalıdır.

İlahiyyatçılar həmçinin təklif edirlər ki, yas məclislərində sərf edilən böyük xərclər imkansız ailələrə, tələbələrə və ya digər xeyirxah işlərə yönəldilsin. Bu həm mərhum üçün savab qazandırar, həm də cəmiyyət üçün daha faydalı olar.

**İlahiyyat üzrə fəlsəfə doktoru, deputat Ceyhun Məmmədov mövzu ilə bağlı "Yeni Müsavat"a fikrini bölüşüb:** "Bir neçə gün əvvəl Füzuli rayonunda da belə bir hadisə baş vermişdi və bununla bağlı müzakirələr başladı. Məlum oldu ki, bir neçə il ərzində 19 milyon vəsaitə qənaət edilib. Bu gün Azərbaycanda keçirilən dəbdəbəli yas məclislərinin İslamla heç bir əlaqəsi yoxdur. Ümumiyyətlə, İslamda üç gündən artıq yas saxlamaq yoxdur. "Cümə axşamı", "40 məclisi" və digər bu kimi ənənələrin heç bir dini əsası yoxdur. Bunlar sonradan formalaşmış adətlərdir. Təəssüf ki, bu gün Azərbaycanda yas məclislərində ciddi israfçılığın baş verdiyi açıq şəkildə müşahidə olunur və bu israfçılıq cəmiyyəti ciddi şəkildə narahat edir. Ona görə hesab edirəm ki, vahid bir normanın tətbiq edilməsi, yas məclislərinin dinə uyğun keçirilməsi, israfçılığın qarşısının alınması məqsədi bu gün nəzərdə saxlanmalıdır. Bu, əsasən iki yolla tənzimlənə bilər. Birincisi, vətəndaşlar özləri bunu etməkdə maraqlı olurlar. İkinci isə inzibati qaydada bu məsələyə baxılır. Yaxşı olar ki, bunu insanlar özləri etsin. İnsanların doğmaları dünyasını dəyişdikdə bilmirlər ki, doğmalarının itkisinə görə kədərlənsinlər, hüzn yaşasınlar, yoxsa yer axtarsınlar ki, gedib orada yas məclislərini keçirsinlər. Yəni bu, həqiqətən də cəmiyyət üçün narahatlıq doğuran məsələdir. Bu gün cəmiyyətdə də geniş müzakirə olunur. İnsanlar bəzən bunun üçün kredit, borc götürürlər. Bizə də bununla bağlı çoxlu müraciətlər daxil olur. Dünyasını dəyişən insanın yaxınına bir yas mərasimi bəzən 5 min, 10 min, 15 min, 20 min, hətta 50 min manata qədər vəsaitə başa gəlir. Bu, böyük bir vəsaitdir və açıq şəkildə israfçılıqdır. Bu şəkildə keçirmək düzgün deyil. Daha səmərəli və məqbul metodların tətbiq olunması vacibdir ki, həm insanların yükü azalsın, həm də dini qaydalar qorunsun".

**Yas mərasimləri zamanı vəsaitin səmərəsiz xərcləndiyini deyən deputat qeyd edib ki, bu vəsaiti imkansız insanlara, qızların təhsilinə yönəldə bilərik, məktəb tikə bilərik:** "Fikrimcə, yanaşmamızda bu istiqamətlər nəzərə alınmalıdır. Çünki bu gün cəmiyyətimizdə bununla bağlı ciddi müzakirələr aparılır və ciddi narazılıqlar var. Bütün bunları nəzərə alaraq insanları artıq yükdən, artıq xərclərdən azad etməliyik. Bu artıq zamanın və dövrün tələbidir".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**



# 100 manat rüşvətə görə 8 il həbs cəzası aldı

***Əsgərlərdən 100 manat rüşvət almaqda ittiham olunan gizirə 8 il həbs cəzası verilib.***

Musavat.com xəbər verir ki, N saylı hərbi hissələrdən birində rabitə bölüyünün baş çavuşu vəzifəsində, baş gizir hərbi rütbəsində xidmət edən hərbi qulluqçu rüşvət almaqda ittiham edilib.

O, tabeliyində olan iki əsgərdən onları qanunsuz olaraq məzuniyyətə göndərmək adı ilə rüşvət almaqda ittiham edilir. İstintaqla müəyyən edilib ki, əsgərlərin hər biri xidmət yerlərini tərk etmək, ailələrinin yanına getmək üçün baş gizirə 100 manat ödəniş ediblər. Həmin pulu baş gizirin kartına göndəriblər.

Baş gizir ittihamları qəbul etməyib və günahsız olduğunu deyib. Bildirib ki, əsgərlər xidmət yerini tərk edən zaman onun özü həmin hərbi hissədə olmayıb. Belə olan halda onların xidmət yerini tərk etməsinə kömək etməsi mümkünsüzdür.

Məhkəmə baş giziri təqsirli bilib. Hökmə əsasən baş gizir 8 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **İ.MURADOV,**
**Musavat.com**

YENİ MÜSAVAT
Son səhifə
N 15 (8625) 28 yanvar 2025
Yanvar

# Bunları bilirsinizmi?

* İnsanlar oksigensiz 3 dəqiqə, susuz 3 gün və yemək yemədən 3 həftə yaşaya bilər.
* 2011-ci ildə Yaponiyada baş verən 8,9 ballıq zəlzələ nəticəsində günlərin uzunluğu 1,8 mikro saniyə azalıb.
* Qarışqalar məcbur qaldıqlarında 2 həftə ərzində suyun altında yaşaya bilirlər.
* Vakuumda (havasız və cazibə qüvvəsinin olmadığı məkanda) ağlamaq mümkün deyil. Çünki göz yaşı aşağı doğru hərəkət edə bilmir və gözdən yaş çıxmır.
* İnsanların omba sümüyü betondan daha möhkəmdir.
* Ağcaqanad əleyhinə spreylər əslində onların insanlara yaxınlaşmasını əngəlləmir. Sadəcə olaraq, ağcaqanadların hissiyyatını bağlayır və bir növ insanları gizləyir.
* "Süd yolu" qalaktikasında 400 milyarddan çox ulduz olduğu düşünülür.
* Bir insan gündə ən az 500 litr oksigen istifadə edir.
* Hər gün 275 milyona yaxın yeni ulduz yaranır.
* Gözlərin hər biri 130 milyondan çox görmə sinir hüceyrəsindən ibarətdir. Hər hüceyrənin içində isə 100 trilyon atom var. Bu rəqəmlər ümumilikdə dünyadakı bütün ulduzların sayından daha çoxdur.
* Hazırda dəniz aləmində 180-nə yaxın balıq növü işıq görmədən yaşayır.
* Əgər bir sözü xatırlamaqda çətinlik çəksəniz, yumruğunuzu sıxın. O zaman beyinin fəaliyyəti daha da artır və yaddaşı işə salmağa kömək edir.
* 17. 600 kiloqramlıq bir balinanın ürək damarının içinə bir insan yerləşə bilər.
* Bir insan yaşadığı müddətdə ortalama 23 min dəfə göz qırpır, 100 min dəfə ürəyi döyünər, 23 min dəfə nəfəs alar, qaraciyərləri ilə 1500 litr qan süzülər, mədəsi ilə 2 litr asit turşusu istehsal edər.

# İt saxlamaq insana xoşbəxtlik gətirmir



**Britaniya veterinarları bildiriblər ki, it saxlamaq bəzən insana yük ola bilər və bu heç də həmişə xoşbəxtlik demək deyil. Ekspertlər it saxlamazdan əvvəl ciddi-ciddi düşünməyi məsləhət görürlər.**

O da qeyd olunur ki, heyvan saxlamaqla bağlı əsas problemlərdən biri də veterinar xidmətinin baha olmasıdır. Bundan başqa, itlə səyahətə çıxmaq da ciddi problemlər yaradır. Veterinarlar iddia edir ki, bu amillər öz növbəsində it sahibində "narahatlıq, kədər və günahkarlıq hissi yarada, depressiya və ürək problemləri də daxil olmaqla, ciddi xəstəliklərə səbəb ola bilər".

# Türkiyədə 1 301 çeşid dondurma ilə dünya rekordu

**Türkiyənin şimal-şərqində yerləşən Ordu vilayəti bu gün bütün dünyanın diqqətini çəkib. Belə ki, yerli kulinariya ustalarından olan Celal Karaarslan və onun peşəkar komandası tərəfindən hazırlanan 1 301 çeşid dondurma 125 metrlik nəhəng bir masada nümayiş etdirilərək "Ginnesin Rekordlar Kitabı"na düşüb.**

Oxu.Az-ın verdiyi məlumata görə, bu barədə "Hürriyet" xəbər yayıb. Yerli məhsulların zənginliyindən ilhamlanaraq yaradılan bu unikal dondurma kolleksiyasında balıq, kələm, fındıq və digər qeyri-adi təamlardan istifadə edilib.

Dondurmalar "Ginnesin Rekordlar Kitabı"nın Türkiyə üzrə nümayəndəsi Şeyda Subaşı Gemici və həmkarları tərəfindən yoxlanılıb.

# TikTok-un ABŞ-dakı taleyi bu tarixdə bəlli olacaq

**Yaxın 30 gün ərzində ABŞ-da TikTok sosial şəbəkəsinin taleyi ilə bağlı qərar veriləcək.**

Bu barədə ABŞ prezidenti Donald Tramp açıqlama verib. "Bir çox insan mənimlə TikTok məsələsini müzakirə edir, bunlar çox vacib insanlardır. Yəqin ki, yaxın 30 gün ərzində qərar verəcəm. Bunun üçün 90 günüm var, Konqres mənə 90 gün vaxt verdi. Bəlkə biz TikTok-u xilas edə bildik, məncə, bu, yaxşı olardı", - Tramp deyib.

# Qadına donuz böyrəyi köçürüldü - vəziyyəti yaxşıdır



**ABŞ sakini Tovana Luni 61 gündür ki, donuz böyrəyi ilə yaşayır. Teleqraf.com xəbər verir ki, qadın özünü yaxşı hiss edir. "Associated Press"in verdiyi xəbərə görə, bu sözügedən cərrahi əməliyyatdan sonra qeydə alınan ən uzunömürlülük hadisəsidir. Qadının bir ay sonra xəstəxanadan çıxıb normal həyata qayıdacağı gözlənilir. Luninin əməliyyatının uğurlu keçməsi alimləri ümidləndirib. Onlar gələcəkdə insana heyvan orqanlarının köçürülməsi istiqamətində əməliyyatların daha geniş yayılacağına inanırlar.**




# Elçilikdə yox cavabı aldı, qızı və anasını maşınla vurdu

**Xaçmaz rayonunda yol-nəqliyyat hadisəsi zamanı ana və qızı xəsarət alıb. "Report" məlumat verir ki, 2001-ci il təvəllüdlü A.Kərimova və onun anası 1971-ci il təvəllüdlü T.Əskərova işdən gələrkən onları Araz adlı şəxs maşınla vurub. Yaralıların bildirdiyinə görə, Araz adlı şəxs bir neçə gün əvvəl onlara elçi gəlib və yox cavabı aldığına görə qəsdən bu hadisəni törədib. Hadisə ilə bağlı araşdırmalar davam etdirilir.**

# Yapon qocalar həbsxanada yaşamaq üçün cinayət törədir



**Yaponiyada yaşlı insanlar həbsxanaya düşmək üçün qəsdən cinayət törətməyə başlayıblar.**

Bu barədə "CNN" məlumat yayıb. Məlumata görə, 2003-cü ildən 2022-ci ilə qədər 65 və daha yuxarı yaşda olan məhbusların sayı təxminən dörd dəfə artıb.

Belə ki, yaşlı qadınlar həm tənhalıqla üzləşməmək, həm də yaxşı şərait üçün həbsxana axtarışındadırlar. Yaponiyada cəzaçəkmə yerlərində ahıllara müntəzəm yemək verilir, tibbi xidmət göstərilir, eləcə də ünsiyyət üçün şərait yaradılır. Bildirilir ki, bəzi yaşlı məhbuslar daimi olaraq həbsxanada qalmaq imkanı üçün ayda 130-190 dollar ödəməyə hazırdırlar.

81 yaşlı Akie yemək oğurladığı üçün həbsxanaya düşüb. Onun sözlərinə görə, həbsxanada özünü ilk dəfə təhlükəsiz hiss edib. Bundan əvvəl qadın tənhalıqdan əziyyət çəkib və yalnız pensiyası ilə dolanıb.

CNN-in məlumatına görə, Yaponiya hakimiyyəti yaşlı insanlar azadlığa çıxdıqdan sonra onlara dəstək proqramları yaratmaqla problemi həll etməyə çalışır. Bu tədbirlərə müstəqil həyat bacarıqlarının öyrədilməsi, ailə əlaqələrinin bərpası və pensiyaçılara mənzil subsidiyalarının verilməsi daxildir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-cì məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yenì Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bìlər.
Lìsenziya N: B 114
SAYI: 1.500